www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 yanvar 2019-cu il Cümə № 7 (7177) Qiymәti 60 qәpik

**Xəbər**

## "Sovetski"də bir ailəni məhv edən partlayışla bağlı yeni iddialar

yazısı səh.11-də

**Gündəm**

### İraqlı turistlər üçün vizanın ləğvinin sensasion səbəbləri



Azərbaycan əleyhinə kampaniya, radikal dini qruplar...

yazısı səh.7-də

### Məşhur ekspert Rüfət Aslanlının keçmişindən elə şeylər danışdı ki...

yazısı səh.3-də

### Bələdiyyə seçkiləri niyə 27 dekabra təyin edilib - reaksiya

yazısı səh.6-da

### Novruzda əfv olacaq

yazısı səh.7-də

### İrana casusluq edən israilli uşaq həkimi kimdir?

yazısı səh.9-da

### Rəsmi Bakı FETÖ-nü terror təşkilatı kimi tanıya bilər - Ərdoğanın çağırışı...

yazısı səh.9-da

### Silahımız düşməni məhv edəcək qədər çoxdur - ekspert

yazısı səh.13-də

### Azərbaycan vətəndaşlığı üçün şərtlər: 5 il yaşama, dövlət dili...

yazısı səh.12-də

### Ölkəmiz neft hasilatını gündəlik 20 min barel azaldır

yazısı səh.4-də

### Xaricdən gətirilən ərzaq məhsulları qıtlaşıb-müəmma

yazısı səh.12-də

### Türkiyə, Rusiya, yoxsa İranın ölkəmizə daha çox təsiri var?

yazısı səh.5-də

### Arvadını döyənləri həbs cəzası gözləyir

yazısı səh.14-də

# İRƏVANDAN KREMLƏ QARŞI DE-MARŞ: XOCALI CANİSİ MOSKVA İLƏ BAZARLIĞA ÇIXARILIR

Paşinyan Yeni ilini Putinin şəxsən təbrik etdiyi Köçəryanı yenə həbsdə saxladı - məhkəmə qərarının arxasındakı əsas hədəf; **erməni nəşri:** "Putin üçün Köçəryan mühüm fiqurdur, çünki..."




yazısı səh.8-də

## "Donuz qripi"nə görə Bakıda xüsusi palatalar yaradıldı, sərhəddə dezinfeksiya...

Palatalar hazır vəziyyətə gətirilib, dərman vasitələri, tibbi ləvazimat və inventarlarla təchiz edilib; sərnişin və yük vaqonları yuyulub dezinfeksiya olunduqdan sonra "Azərbaycan Dəmir Yolları" QSC-yə təhvil verilir

yazısı səh.10-da



*Aqil Abbas:*

### "Amerikalı həmsədri buradan qovmaq lazımdır"

yazısı səh.4-də



### "Timsah" ləqəbli Zimbabve prezidentini Bakıya gətirən səbəblər

yazısı səh.5-də



Kürdoğlu Əsgərov

### Erməni girovluğunda olanın oğlundan "Qızıl Xaç"a etiraz

yazısı səh.10-da



# Prezident yeni "Tufan" sərhəd gözətçi gəmisi ilə tanış olub

**Prezident İlham Əliyev yanvarın 10-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi, döyüş texnikası və silah-sursatla tanış olub. Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev İlham Əliyevə raport verib. Sonra Elçin Quliyev görülən işlər barədə məlumat verib.**

Dövlət başçısına "Savalan" tipli müasir sərhəd gözətçi gəmisinin layihəsi, həmçinin "Milli Boat" proqramı çərçivəsində yeni itisürətli üzmə vasitələri, yedək gəmiləri təqdim olunub.

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tikintisini əks etdirən videoçarxa baxıb, onların texniki göstəriciləri ilə tanış olub.

Sonra prezident İlham Əliyevə yeni xüsusi təyinatlı döyüş texnikası və silah-sursat, pilotsuz uçan aparatlar, tank əleyhinə idarə olunan raketlər, lazer hədəf tuşlama sistemləri, termal müşahidə cihazları təqdim olunub. Prezident İlham Əliyevə mobil qida maşınlarının istehsalı, sərhəd gözətçi katerlərin təmiri üçün nəzərdə tutulmuş texnika nümayiş olundu. Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində xidmətin istifadəsində olan üzmə vasitələrinin, o cümlədən gəmilərin inşası və təmirini yüksək səviyyədə aparmaq üçün müasir qurğular quraşdırılıb. Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində hərbi və mülki təyinatlı müxtəlif məhsulların istehsalı və təmiri nəzərdə tutulub.

Dövlət başçısına həmçinin dövlət sərhədlərinin mühafizəsində yeni tətbiq olunan səhra qərargahları, səhra yataqxanaları və sərhədçilərin səhra məişət xidmətləri barədə məlumat verilib.

# Sağlam istirahət üçün dünyanın ən yaxşı şəhərləri açıqlandı

**Sağlam istirahət üçün dünyanın ən yaxşı 50 şəhəri siyahısına Paris başçılıq edir. Bununla bağlı "Daily Mail" məlumat yayıb. (Oxu.az). "TravelSupermarket" şirkətinin ekspertləri reytinqi hazırlayarkən parkların, idman zallarının, spa-salonlarının, yoqa studiyalarının, vegetarian restoranlarının və sağlam qida satan mağazaların, eləcə də bir il ərzindəki günəşli günlərin sayını nəzərə alıblar.**

Siyahının ilk üçlüyünə Tailandın Çianqmay və İspaniyanın Barselona şəhərləri daxildir.

Daha sonra Tailandın Pattaya kurortu və Kanadanın Vankuver şəhəri gəlir.

İlk onluqda Mayami (ABŞ), San-Fransisko (ABŞ), Lissabon (Portuqaliya), Denpasar (Bali, İndoneziya) və Buenos-Ayres (Argentina) də yer alıb

# İran səfirliyinə silahlı hücum

**Hollandiyada İran səfirliyinə hücum edilib. "Sputnik Azərbaycan" xəbər verir ki, Hollandiyada bir qrup nümayişçi Haaqa şəhərində yerləşən İran səfirliyinə daxil olmağa çalışaraq tapança ilə atəş açıb.**

Nümayişçilərdən birinin 2017-ci ildə Haaqada öldürülən iranlı Ahmad Nissinin oğlu olduğu bildirilib.

Hadisə ilə bağlı Hollandiya polisi açıqlama verib: "Səfirliyin binasına daş atıldığı, tapança ilə atəş açıldığı müəyyən edilib. Hadisə ilə əlaqədar 4 etirazçı həbs olunub".

Qeyd edək ki, Hollandiya kəşfiyyat xidməti olan "AIVD" İran kəşfiyyatının Hollandiyada baş verən iki cinayətin arxasında ola biləcəyini açıqlamışdı.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Bakıdakı apteklərdə yoxlamalar başlayıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi paytaxtdakı apteklərdə yoxlamalara başlayıb. Nazirliyin mətbuat xidmətinin rəhbəri Pərviz Abubəkirov virtualaz.org-a faktı təsdiqləyib.**



Abubəkirov bildirib ki, əhalinin təhlükəsiz və keyfiyyətli dərman vasitələri ilə təmin edilməsinə nəzarət məqsədilə plan üzrə yoxlamalar aparılır. Artıq 17 aptek yoxlanıb, onlardan 9-da nöqsanlar aşkarlanıb. "Yoxlamalar zamanı aptekdə satılan dərman vasitələrinin sertifikatının, qeydiyyat vəsiqəsinin olmasına, dərmanların saxlama şəraitinə diqqət yetirilir, həmçinin Azərbaycan ərazisində idxalına, saxlanmasına, istifadəsinə və satışına icazə verilməyən, istifadə müddəti bitmiş, keyfiyyətsiz, mənşəyi məlum olmayan, saxta dərman vasitələrinin satışının aparılmamasına nəzarət edilir. 9 aptekdə sertifikatı olmadan satılan 292 qutu dərman aşkarlanaraq götürülüb. Aptek sahiblərinə qarşı protokollar tərtib edilib, baxılması üçün aidiyyəti qurumlara göndərilir", - mətbuat katibi əlavə edib.

Abubəkirov deyib ki, plan üzrə yoxlamaların aparılması dövriliyi qanunvericiliyə görə - yüksək risk qrupuna aid edilən sahibkara münasibətdə ildə bir dəfədən çox olmayaraq, orta risk qrupuna aid edilən sahibkara münasibətdə iki ildə bir dəfədən çox olmayaraq, aşağı risk qrupuna aid edilən sahibkara münasibətdə üç ildə bir dəfədən çox olmayaraq dəyişir. Yoxlamalar davam edir.



# Məhkəmə Məmməd İbrahimi 5 ay 22 gün azadlıqdan məhrum edib

**Yanvarın 10-da Suraxanı Rayon Məhkəməsi AXCP sədrinin müşaviri Məmməd İbrahimə qarşı yeni cinayət işi üzrə onun barəsinə hökm çıxarıb.("Turan").**

Məhkəmə onu CM-in 317.2-ci maddəsi (həbsxanada qadağan olunmuş əşyaların saxlanması) ilə təqsirli bilərək 5 ay 22 gün azadlıqdan məhrum edib.

Bundan öncə prokuror onun həmin maddə üzrə maksimum müddətə - 6 ay azadlıqdan məhrum edilməsini istəmişdi. M.İbrahim ittihamı rədd edərək işi siyasi sifariş adlandırıb. Müdafiə tərəfi hökmdən şikayət vermək niyyətindədir.

M.İbrahim 2015-ci il sentyabrın 30-da həbs olunub və xuliqanlıq ittihamı ilə 3 il azadlıqdan məhrum edilib. Həbs müddətinin başa çatmasına bir gün qalmış ona qarşı qanunsuz bıçaq saxlamaq ittihamı irəli sürülüb. Sentyabrın 28-də Yasamal Rayon Məhkəməsi M.İbrahimi 2 ay müddətinə həbs edib.

Məmməd İbrahim hüquq müdafiəçiləri tərəfindən siyasi məhbus kimi tanınıb.



# Azərbaycanın Avstraliyadakı səfirliyinə şübhəli bağlama göndərilib

**Azərbaycanın Avstraliyadakı səfirliyinə göndərilən şübhəli bağlama hüquq-mühafizə orqanlarına təhvil verilib. "AzərTAc" xəbər verir ki, bu barədə Azərbaycanın Avstraliyadakı müvəqqəti işlər vəkili Elcan Həbibzadə agentliyin ölkə üzrə xüsusi müxbirinə bildirib.**

E.Həbibzadə qeyd edib ki, şübhəli bağlama yanvarın 9-da səfirliyə daxil olub. Onun üzərində göndərildiyi ünvan və şəxsin adının göstərilməməsi şübhə doğurub. Yanvarın 8-də Avstraliya Xarici İşlər və Ticarət Departamentindən daxil olan xəbərdarlıq nəzərə alınaraq, dərhal polislə əlaqə yaradılıb. Yanvarın 10-da səhər saatlarında səfirliyə gələn polis əməkdaşları bağlamanı təhvil alıblar.

Müvəqqəti işlər vəkili əlavə edib ki, hazırda səfirliyin fəaliyyəti üçün heç bir təhlükə yoxdur və diplomatik heyət işini müvafiq qaydada davam etdirir.

Yanvarın 10-da Avstraliya Federal Polisi bu ölkədəki diplomatik missiyalara təhlükəli bağlamalar göndərən şəxsin həbsi barədə məlumat yayıb. Məlumatda qeyd edilir ki, Avstraliyanın cənub-şərqində yerləşən Şepparton şəhərində yaşayan 48 yaşlı kişi təhlükəli bağlamaların göndərilməsində şübhəli bilinərək həbs olunub. Hazırda bağlamaların tərkibi məhkəmə-tibb ekspertizası tərəfindən yoxlanılır.

Həmin şəxs yanvarın 10-da Melburnun magistr məhkəməsi qarşısında cavab verəcək. O, bir sıra ölkələrin Melburn, Kanberra və Sidneydə yerləşən səfirlik və konsulluqlarına 38 şübhəli bağlama göndərib. Günahı təsdiq olunacağı təqdirdə bu şəxsi 10 ilədək azadlıqdan məhrum edilmə cəzası gözləyir.

# İran kosmosa iki süni peyk göndərəcək

**İran dövləti gələn həftə öz hərbi sənayesinin istehsalı olan raketlə kosmosa iki süni peyk göndərəcək. Bunu İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ölkənin keçmiş dövlət başçısı Əli Əkbər Haşimi Rəfsancaninin vəfatının ikinci ildönümünə həsr olunmuş tədbirdə deyib. .(AzərTAc).**

O qeyd edib ki, bu gün İran müdafiə sahəsində ən son nailiyyətlərə malik silah istehsalı ilə məşğuldur. İran prezidentinin sözlərinə görə, hərbi sənayenin inkişafının əsası mərhum ölkə başçısı Rəfsəncaninin hakimiyyəti illərində qoyulub. İran bu sahədə artıq çox irəliləyib.



# Bakıda 1 milyon saxta rus rublunu satmaq istəyən şəxslər saxlanıldı

**Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları külli miqdarda saxta xarici valyutanı dövriyyəyə buraxmaqla ölkənin maliyyə sisteminə təhlükə yaratmağa çalışan şəxslərin ifşa olunması istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçiriblər.**

DİN-in mətbuat xidmətindən verilən məlumata görə, Baş İdarəyə Şirvan və Həsən adlı şəxslərin paytaxt ərazisində külli miqdarda saxta rus rublunu satmaq istəməsi barədə məlumat daxil olub. Həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbiri nəticəsində həmin şəxslər - Bakı şəhər sakini Həsən Ələkbərov və Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş Şirvan Musayev 1.000.000 saxta rus rublunu 8000 manata satmaq istəyən zaman saxlanılıblar. Həmin şəxslərin yaşadıqları ünvanlara baxış keçirilən zaman əlavə olaraq digər maddi sübutlar aşkar edilərək götürülüb.

Ekspertizaya təqdim edilən 500-lük banknotlardan ibarət ümumilikdə 1.000.000 saxta rubl yoxlanılan zaman müəyyən edilib ki, həmin pulların həqiqi əsginaslardan fərqlənməməsi üçün müdafiə nişanları və eskizləri xüsusi üsulla hazırlanıb. Bu səbəbdən ilk baxışdan həmin pulların saxta olmasını müəyyən etmək mümkün deyil.

Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb. H.Ələkbərov və Ş.Musayev barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib, istintaq tədbirləri davam etdirilir.

# Fevralda Avropa Komissiyasının vitse-prezidenti Bakıya gəlir

**Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç fevral ayında Azərbaycana səfər edəcək.**

O, Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsindəki iclasa qatılacaq.

"Report" xatırladır ki, Avropa Komissiyasının vitse-prezidenti ötən il fevral ayında Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclasında iştirak edib.

# Belarus və Rusiya birləşir?

**Belarus və Rusiyanın vahid dövlətdə birləşməsi məsələsi gündəmdə deyil.**

Bunu Belarus prezidenti Aleksandr Lukaşenko hökumətin iclası zamanı deyib.

A.Lukaşenko bildirib ki, bu məsələ Rusiya prezidenti Vladimir Putinlə də müzakirə olunub: "Biz Rusiya prezidenti ilə birmənalı şəkildə müəyyənləşdirdik ki, Belarus və Rusiyanın birləşməsi məsələsi gündəmdə yoxdur". "Trend"in məlumatına görə, Belarus prezidenti əlavə edib ki, iki dövlətin ittifaqı yalnız bərabərhüquqlu əsasda inkişaf edə bilər.

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

**Maliyyə Bazarlarına Nəzarət Palatasının sabiq sədri Rüfət Aslanlı barəsində ölkə mətbuatında məlumatlar bir-birini əvəz etməkdədir. Son yayılan məlumatda Rüfət Aslanlının barəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə müraciət olunduğu yer alır. Türkiyə Respublikasının “Midek İnşaat Sanayi ve Dış Ticaret Ltd. Şti” şirkətinin nümayəndəsi Mustafa Veysel Güldoğan iddia edir ki, Gədəbəy rayonunun dağlıq ərazisində yerləşən daşdan tikilmiş qəsr tipli villada quraşdırılmış avadanlıqlara görə yaranmış borcunu vermir.**

# Rüfət Aslanlının iş yoldaşı onun keçmişindən elə şeylər danışdı ki...

## Əkrəm Həsənov: “Rüfət Aslanlı dar çərçivədən çıxa bildi, amma korrupsiyaya qurban getdi”

Rüfət Aslanlının “qara zolağa” çıxaran səbəblərlə bağlı vaxtilə onunla Mərkəzi Bankda çalışmış Əkrəm Həsənovla söhbətləşdik.



**Ə.Həsənov deyir ki, sabiq sədr olduqca savadlı, öz işini bilən, səriştəli kadrdır:** “Onun milyonçu qohumları, valideynləri olmayıb. Hamı bilir ki, kasıbçılıqdan gəlib öz savadı ilə qalxanlardandır. Rüfət Aslanlı əmək fəaliyyətinə 90-cı illərdə bank sektorunda başlayıb. Sonra Mərkəzi Bankda işə götürülüb. Onu adi mütəxəssis kimi işə götürüblər. Kredit Təşkilatlarının Fəaliyyətinə Nəzarət Departamentində adi bir mütəxəssis kimi işə başlayıb, tədricən şöbə müdiri, çalışdığı departamentin direktoru oldu. 2001-ci ildə Mərkəzi Bankın İdarə Heyətinə üzv təyin edilib”.

**Ə.Həsənov deyir ki, Rüfət Aslanlıya vəzifə irəliləyişində dəstək verən olmayıb:**“Rüfət Aslanlı Azərbaycanda bank-maliyyə sahəsində olan ən savadlı kadrlardan biridir. 2000-ci ilin əvvəllərində Mərkəzi Bankda çalışanların əksəriyyəti qeyri-rəsmi deyirdi ki, Rüfət Aslanlı gələcək sədrdir. Elman Rüstəmovun sağ əli idi, onun biliyi, savadı, çox yaxşı yazı, əsaslandırma qabiliyyəti vardı. 2007-ci ilə qədər Mərkəzi Bankda çalışdı, həmin dövrdə bankın bütün vacib sənədləri, bəyanatları, tədqiqatları, Elman Rüstəmovun çıxışlarını da o yazırdı. Rüfət Aslanlı Mərkəzi Bankdan gedəndən sonra orada iş keyfiyyəti aşağı düşdü. Həmin il Rüfət Aslanlı Qiymətli Kağızlar Komitəsinin sədri vəzifəsinə təyinat aldı. Formal olaraq yüksəlişə getdi. Amma haradasa Elman Rüstəmov da maraqlı idi onun gedişində. Çünki onu özünə güclü rəqib görürdü. Rüfət Aslanlının ambisiyaları çox böyük idi. Biz Mərkəzi Bankda çalışanda o, bankın Tender Komissiyasının sədri, mən katibi idim. Mərkəzi Bank üçün nə alınırdısa, həmin komissiyadan keçirdi. Ədalətli idi, korrupsiyaya yol vermirdi. 2004-cü ildə Mərkəzi Bankın binasının sığortalanmasına dair tender oldu. Hər il binanı "Başak İnam" sığorta şirkəti sığortalayırdı. Çünki həmin şirkət rəhbərliyi ilə Elman Rüstəmovun yaxınlığı vardı. Həmin il tenderdə bir neçə şirkət iştirak etmişdi. Komissiya tenderdə iştirak etmiş şirkətlərin təklifləri olan konvertləri açanda məlum oldu ki, ən aşağı qiyməti elə “Başak İnam” sığorta şirkəti təklif edib. Amma sığortalama ilə bağlı tenderin bütün şərtlərinə “Başak İnam” riayət etməmişdi. Qiymətə görə 2-ci yerdə isə “M-bask” sığorta şirkəti idi. “Başak İnam”a dedik ki, sizin şərtlər tam deyil, siz həmin şərtləri təsdiqləyirsiz? Özlərindən razı halda dedilər ki, təsdiqləyirik. Düşünürdülər ki, qalibdirlər. Rüfət Aslanlı ədalətli qərar verdi və “M-bask”ı qalib elan etdi. Yəni o vaxt Rüfət Aslanlı faktiki olaraq Elman Rüstəmovla kəllə-kəlləyə gəldi. Onun Qiymətli Kağızlar Komitəsinə getməyini şərtləndirən belə məsələlər idi".

**Ə.Həsənovdan Rüfət Aslanlı Mərkəzi Bankda çalışan illərdə əmək haqqının nə qədər olduğunu da xəbər aldıq. Cavabı belə oldu:** “O dövrdə İdarə Heyəti üzvləri maksimum 3 min manat alırdılar. Sonradan 5-6 min manata qədər artdı. Qiymətli Kağızlar Komitəsində isə sədrin əmək haqqı maksimum 1500 manat olardı. 2007-ci ildən 2016-cı ilə qədər Rüfət Aslanlı orada çalışdı. Həmin il Qiymətli Kağızlar Komitəsinin bazasında Maliyyə Bazarlarına Nəzarət Palatası yarandı və oranın rəhbəri oldu. Həmin vəzifədə 1 il qaldı və 65 min manat əmək haqqını da həmin 1 il ərzində aldı. Ümumilikdə o vəzifədə 2 il yarım işlədi”.

**Ə.Həsənov Rüfət Aslanlının biznesi haqda suala belə cavab verib:** “Münasibətimiz rəsmi idi, amma o vaxtlar hamı deyirdi ki, kifayət qədər imkanlı insandır. Həmişə bahalı avtomobillərdə gəzir, bahalı kostyumlar geyinirdi. Mərkəzi Bankda ən çox işləyən də o idi. Amma bununla belə, rəsmi gəlirlərlə mətbuatda yazıldığı kimi villa, hotel, qəsr almaq əlbəttə ki, mümkün deyil. Onun biznesi də olmamış deyil. Onun qardaşı Fuad Aslanlı Avrasiya Bankının rəhbəridir. Hətta deyirdilər ki, həmin bank da onundur”.

**Müsahibimiz dedi ki, Qiymətli Kağızlar Komitəsində korrupsiya üçün elə bir şərait olmayıb:** “Komitədə xırda-xuruş nəsə ola bilərdi, amma orada böyük, ciddi korrupsiyaya şərait yox idi. Rüfət Aslanlı həmişə maraqlı idi ki, komitə maliyyə nəzarəti orqanına çevrilsin. 2016-cı ildə belə də oldu, Rüfət Aslanlı dar çərçivədən çıxa bildi, amma korrupsiyaya qurban getdi. Rüfət Aslanlının ambisiyaları böyükdür və bunu gizlətmir. O var-dövlətini gözə soxmağı xoşlayır”.

**Ə.Həsənov dedi ki, Rüfət Aslanlının son iş yerində korrupsiya imkanları bəs deyincədir:** “Mərkəzi Bankda həmişə yüksək əmək haqqı olub və aşağı səviyyədə, məişət korrupsiyası olmayıb. Orada Hüquq Departamentində şöbə müdiri işləmişəm. Həmin illərdə əksəriyyət kredit təşkilatlarının fəaliyyətinə nəzarət edən departamentdə işləməyə can atırdı. Çünki Rüfət Aslanlının rəhbərlik etdiyi departament ən yağlı yer hesab olunurdu. Bayramlarda departamentin adi işçilərinə belə banklardan hədiyyələr, paketlər və s. gəlirdi. Bu söhbətlər vardı. Hamı deyirdi ki, heyf deyil həmin departament. Təkcə banklar deyildi, bank olmayan kredit təşkilatları, sığorta təşkilatlarına nəzarət də həmin departamentdə idi. Rüfət Aslanlının ”vurulması"nın kökündə hesab edirəm ki, dayanan əsas amil onun ambisiyalarıdır".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# “Mehmanla bağlı problem ötən ildə qalıb”

## Rauf Zeyni: “Mehman dedi ki, aclıq aksiyasını dekabr ayının 26-28-də keçirib, sonra dayandırıb”



**Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvü, hüquq müdafiəçisi, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni hazırda həbsdə olan Mehman Hüseynovla keçirdikləri görüşün təfərrüatları barədə danışıb.**

“Yeni Müsavat”a açıqlamasında R.Zeyni bildirdi ki, M.Hüseynovun qaldığı kameraya da baş çəkiblər: “Biz ora gedəndə Mehman özü kamerada yox idi. Dedilər ki, Qırmızı Xaç Komitəsindən nümayəndələr gəlib və Mehman onlarla görüşür. Biz də həmin vaxt istintaqda olan iki nəfərlə söhbət etdik. Mehmanla dəhlizdə qarşılaşdıq. Söhbət etmək ehtiyacı olduğunu dedik. O da ”Böyük məmnuniyyətlə sizinlə görüşərəm" dedi. Onunla bir saatdan çox söhbətimiz oldu. Hüquq müdafiəçiləri və biz görüşdük. Telefonlarımız alındı. Ondan soruşduq ki, şəkil çəkdirib paylaşmağımıza problem yoxdur? Dedi ki, problem yoxdur. Mehman dedi ki, aclıq aksiyasını dekabr ayının 26-28-də keçirib. Ondan sonra aclığı dayandırıb və süd, süd məhsulları qəbul etməyə başlayıb. Ondan sonra yayılan məlumatların hamısı dəqiqləşdirilməmiş məlumatlardır. Halbuki yenə də mətbuatda məlumat yayılmışdı ki, hələ də Mehman aclığı dayandırmayıb. Ona görə də mətbuat vasitəsilə çatdırmaq istəyirik ki, Mehmanla bağlı problem ötən ildə qalıb".

R.Zeyni dedi ki, M.Hüseynovun narahatlığı və narazılığı ona qarşı irəli sürülən ittihamla bağlıdır. Müsahibimizin sözlərinə görə, blogger “Mənim yalnız hüquqlarım qorunsun” deyib. Komitə üzvləri dövlət başçısına M.Hüseynovla bağlı müraciət ediblər. R.Zeyni ümid edir ki, müraciətə müsbət cavab veriləcək və M.Hüseynov cəza müddəti bitəndən sonra azadlığına qovuşacaq.

**“Sosial şəbəkələrdə paylaşılan məlumatlara əsasən, deputat Araz Əlizadənin həbsdə olan blogger Mehman Hüseynovu təhqir edərək, onun ünvanına ”Yaxşı ki, anasını da soyundurub fotosunu çəkməyib" ifadəsini işlətdiyi iddia edilir. Əgər bu belədirsə, həmin deputat, deputatlar üçün qanunla müəyyən edilmiş etik davranış qaydasını pozub".**

**Modern.az-ın məlumatına görə, bunu Vəkillər Kollegiyasının üzvü Elçin Abdullayev deyib.**

**Vəkil qeyd edib ki, Azərbaycan qanunvericiliyi təhqiri qadağan edir. Vəkil bildirib ki, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Qanunun 17-ci maddəsinə əsasən, deputat qanunazidd hərəkətlərə, habelə yüksək adına xələl gətirə biləcək davranışa, insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verməməli, başqalarını bu cür hərəkətlər etməyə çağırmamalı, Azərbaycan Respublikası Milli Məclisinin və onun komitə və komissiyalarının iclaslarının aparılması qaydalarına riayət etməlidir:**

“Konstitusiyada deputatın mandatdan məhrum edilməsinin əsasları nəzərdə tutulub. Etik davranış qaydalarının kobud pozulması da həmin əsaslar sırasında yer alıb. Belə ki, konstitusiyanın 79-cu maddəsinin 7-ci hissəsinə əsasən, deputat qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda - mandatından məhrum edilə bilər. Vətəndaşın vəfat etmiş anası haqqında təhqiredici ifadələrə yol vermək etika qaydaların kifayət qədər ciddi polulması kimi qiymətləndirilə bilər.

Etik davranış qaydalarının pozulmasına görə deputat Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır".

Fransa Xarici İşlər Nazirliyi blogger Mehman Hüseynovu müdafiə etdikdən sonra Azərbaycan XİN-in tənqidi ilə üzləşib. “Trend” agentliyinə bu barədə danışan Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bəyan edib ki, rəsmi Paris Mehman Hüseynov məsələsinə münasibət bildirməkdənsə, Fransada nümayişçilərə qarşı zorakılığı dəyərləndirsin.

**L.Abdullayeva qeyd edib ki, Fransa tərəfinin hazırda ölkəni “sarı jiletli”lər aksiyası bürüdüyü bir vaxtda Mehman Hüseynov məsələsinə münasibət bildirməsi gülməlidir:** “Ölkədə nümayişçilərə qarşı su şırnaqları, dəyənəklər və digər qeyri-proporsional şiddət növlərindən istifadə olunur, 4500-dən çox nümayişçi saxlanıb. Biz ümid edirik ki, Fransada saxlanılan nümayişçilərə qarşı ittihamlar aradan qaldırılacaq və onlar qısa zamanda azadlığa buraxılacaqlar”.

Onun sözlərinə görə, ümumiyyətlə, Fransa çoxdandır ki, ermənipərəst mövqe tutur və bu, əslində Azərbaycana qarşı təzyiq kimi qəbul oluna bilər: “Fransada nə baş verdiyini bütün dünya görür. Bütün bunlar Azərbaycana qarşı tətbiq olunan ikili standartın növbəti təzahürüdür”.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

## “Qaçqınkom” rəsmisindən köçürülmələrlə bağlı yeni açıqlamalar

### İbrahim Mirzəyev: “Yeni açılmış qəsəbələrə məcburi köçkünlərin köçürülməsinə yaxın günlərdə başlanılacaq”



**Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarından didərgin düşmüş insanların bir hissəsi indiyə qədər yeni mənzillərə köçürülüb. Köçürülmə prosesinin bu il də davam edəcəyi hökumət tərəfindən rəsmən elan edilib. Prosesin gedişi barədə “Yeni Müsavat”ın suallarını**

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Beynəlxalq əməkdaşlıq, ictimaiyyət və mətbuat xidməti departamentinin direktoru İbrahim Mirzəyev cavablandırıb.**

İ.Mirzəyev deyib ki, bu günədək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 101 qəsəbə salınıb. Bu, 3,5 milyon kvadrat metr yaşayış sahəsi deməkdir. Ötən il 5700 məcburi köçkün ailəsi -təxminən 25 min nəfər evlərlə, mənzillərlə təmin olunub. Bununla da ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatıb. Bu da 53 500 ailə deməkdir.

***- Ötən il neçə yaşayış kompleksi inşa edilib və məcburi köçkünlərin istifadəsinə verilib?***

- Ötən il may ayında prezident İlham Əliyev və birinci vitse-prezident, xanım Mehriban Əliyevanın iştirakı ilə 3 yaşayış kompleksinin açılışı olub. Bunlardan biri, Qaradağ rayonu, Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün salınmış “Qobu Park” yaşayış kompleksidir. 1026 mənzilli bu kompleks Heydər Əliyev Fondunun təşəbbüsü ilə, dövlət vəsaiti xərclənmədən salınıb. Dekabr ayında isə Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün, Sumqayıt şəhərinin mərkəzində isə 1005 məcburi köçkün ailəsi üçün kompleksin açılışı olub. Komplekslərdə olan bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Eyni zamanda məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri də inşa edilib. 2019-cu ildə də qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması prosesi davam etdiriləcək.

***- Hazırda hansı ərazilərdə binaların tikintisi gedir?***

- Hazırda “Qobu park” yaşayış kompleksinin yanında, birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığı, Heydər Əliyev Fondunun təşəbbüsü ilə özəl sektor tərəfindən əvvəlki ilə eyni layihə əsasında 1203 məcburi köçkün ailəsi üçün yeni qəsəbə tikilir. Eyni zamanda Beyləqan rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün bütün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış kompleksi inşa edilir. Artıq evlərin bir çoxunda hörgü işləri başa çatıb, digər evlərdə, məktəb, uşaq bağçası, klub-icma mərkəzi, inzibati binada dəmir-beton, hörgü və suvaq işləri görülür. Bundan başqa, Bakı şəhəri Pirallahı rayonu, Kürdəxanı və Ümid qəsəbəsində, Şirvan şəhərində məcburi köçkünlər üçün qəsəbələr salınır.

Yeni açılmış qəsəbələrə məcburi köçkünlərin köçürülməsinə yaxın günlərdə başlanılacaq.

Köçürülmə prosesi Dövlət Komitəsi tərəfindən mərhələli şəkildə həyata keçirilir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın təşəbbüsü ilə öncə qəzalı vəziyyətdə, yaşayış üçün təhlükəli hesab edilən binalarda, həmçinin müxtəlif tikililərin zirzəmilərində və yarızirzəmilərdə müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri yeni mənzillərdə yerləşdirilir. Sumqayıt və Abşeronda, eləcə də yeni istifadəyə veriləcək Kürdəxanı və Ümid komplekslərində bu prinsip əsas götürüləcək. Qeyd edim ki, “Qobu park” yaşayış kompleksinə köçürülmə zamanı Dövlət Komitəsi tərəfindən zirzəmidə yaşayan 270-dən çox ailə köçürülüb.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

---

**60 dərəcə şərq uzunluğunda yayım həyata keçirən “İntelsat 33" peyki Dağlıq Qarabağdakı qondarma rejimin ”Artsax TV" adlı telekanalını yayımlamağa başlayıb. Erməni separatçılarının telekanalı bu peykdə yanvarın 6-dan görünməyə başlayıb və HD formatında yayımlanmaqdadır.**

# “Amerikalı həmsədri buradan qovmaq lazımdır”

### Qondarma rejimin “Artsax TV” adlı telekanalının yayıma başlaması sərt reaksiya doğurdu; Bakının təcili hərəkətə keçməsinə çağırış edildi

“İntelsat 33" peyk operatoru 2017-ci ildən fəaliyyət göstərir və Avropanı, Asiyanı, Yaxın Şərqi, Afrikanı, Aralıq dənizi və Hind okeanı regionlarını əhatə edir. Bu isə o deməkdir ki, Qarabağ ermənilərinin telekanalına Türkiyə, Gürcüstan, İran, Rusiyanın bir hissəsi, Ukrayna, bir sıra Avropa və Yaxın Şərq ölkələrində baxa bilərlər.

Beynəlxalq telekommunikasiya nəhəngi “İntelsat” 50 süni peyki idarə edir və mənzil-qərargahı ABŞ-da, habelə Lüksemburqda yerləşir. “İntelsat 33" peyki Amerikanın ”Boeing" korporasiya tərəfindən istehsal edilib. Belə görünür, rəsmi Bakı Qarabağ ermənilərinin telekanalının ABŞ peyki ilə yayımlanmasına qarşı təcili hərəkətə keçməlidir və diplomatik kanallarla müvafiq addımlar atılmalıdır.

**Deputat Aqil Abbas “Yeni Müsavat”a bildirdi ki, bu məsələnin qarşısının alınması yollarını hüquqşünaslar daha yaxşı bilər:** “Ancaq Azərbaycana sülənməyə gələn, yeyib-içib gedən ATƏT-in amerikalı həmsədrini buradan qovmaq lazımdır. Ona demək lazımdır ki, get peyk yayımını dayandır, gələrsən”.



Aqil Abbas



Osman Gündüz

**Onun sözlərinə görə, Dağlıq Qarabağ Azərbaycanlılarının Qarabağ İcmasına yeni sədri seçilən Tural Gəncəliyev bu posta layiqdir və tezliklə “Qarabağ TV” açılmalıdır.** “Qarabağ icmasının telekanalı olmalıdır. Niyə Şuşa, niyə Qarabağ televiziyalarımız yoxdur? Gündə bir küçə telekanalı açılır, arvad-uşaq davalarından, tamadaların mənasız çıxışlarından boğaza yığılmışıq. Ermənilərin qabağına daha güclü informasiya platforması ilə çıxmaq lazımdır”, - deyə o, əlavə elədi.

**“Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz də erməni kanalının açılmasını yolverilməz saydı: “Bu cür insidentlər olub.** Ermənilər telekommunikasiya xidmətləri üçün zaman-zaman addımlar atıblar, bəzən uğur da qazanıblar. Bu hadisənin baş verməsi aidiyyəti qurumların zəif fəaliyyətinin nəticəsidir. Çünki ermənilər həmişə bu sahədə çalışırlar”.

**O.Gündüz hesab edir ki, bizim qurumlar qabaqcadan hazır olmalı, məsələni kontrolda saxlamalı idi, nəinki qarşısının alınması üçün addımlar atılmalıdır.** “Çünki buna hazırlıq gedirdi və bir günə əmələ gələn proses deyildi. O halda telekanalın fəaliyyətinin qarşısını almaq asan olardı, nəinki fəaliyyətə başlayandan sonra. İndi daha çox resurs xərcləməliyik. Ermənilərə belə böyük platforma şəraiti vermək onlar üçün nəhəng üstünlükdür”.

**Ekspert “Artsax TV”-nin yayımının hansı prosedurla məhdudlaşdırılması üçün dünyada oturuşmuş mexanizmin olduğunu bildirdi:** “Bunun qaydaları, konvensiyaları var. Bizim də öz peykimiz var və ”Azərkosmos" müstəqildir. Xarici İşlər Nazirliyi və “Azərkosmos” bu məsələyə qoşulmalıdır. Xatırlayıram ki, İran əleyhimizə kanallar yayanda “Azərkosmos” Afrika ölkələrində İran əleyhinə kanallar yaya biləcəyini söyləmişdi. Ona görə aidiyyəti qurumlar hərəkətə keçməlidir".

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

---

# Azərbaycan neft hasilatını 20 min barel azaldır

### İlham Şaban: “Bu azalma real görünmür”

**Azərbaycan bu il neft hasilatını gündəlik 20 min barel azaltmalıdır. Bu, 2018-ci dekabrın 7-də Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətləri nazirlərinin V görüşündə qəbul edilmiş qərarla bağlıdır. Həmin qərarda neft hasilatının gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən 2019-cu ilin yanvar ayından etibarən Azərbaycan gündəlik hasilatın təxminən 20 min barel azaldılması ilə bağlı öhdəlik götürüb.**



Qeyd edək ki, 2018-ci ilin dekabr ayında Azərbaycanda gündəlik neft hasilatı 790 min barel təşkil edib. Energetika Nazirliyindən verilən məlumata görə, bunun 721 min barelini xam neft, 69 min barelini kondensat təşkil edib. Gündəlik 617 min barel xam neft, 69 min barel kondensat, 13,4 min barel isə neft məhsulları ixrac edilib.

Ötən il də Azərbaycan OPEK+ ölkələri arasındakı razılaşmaya əsasən gündəlik hasilatı 35 min barel azaltmağı öhdəsinə götürmüşdü. Energetika Nazirliyinin açıqlamasına görə, ölkə bu öhdəliyə tam əməl edib. Belə ki, ötən il orta gündəlik neft hasilatı 792,6 min barel təşkil edib.

**Neft sahəsi üzrə mütəxəssis, “Neft” Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın fikrincə, Azərbaycan hökumətinin OPEK konfransı çərçivəsində götürdüyü öhdəliyə əməl etməsi bir qədər çətin görünür:** “Əvvəla, qeyd edim ki, hökumətin büdcə sənədində və Hesablama Palatasının bu sənədə hazırladığı rəydə 2019-cu ildə neft hasilatında gözlənilən azalma ilə bağlı qeyri-real məlumatlar əksini tapıb. Mən başa düşə bilmirəm ki, bu məlumatlar haradan götürülüb? Qeyd edirlər ki, yalnız ”Azəri-Çıraq-Günəşli"dən neft hasilatı bu il 1,5 milyon ton azalacaq. Ötən il bu yataqdan hasilat 28 milyon ton olub. Büdcə zərfində isə builki hasilatın 26,5 milyon ton olacağı qeyd edilib. Məsələ burasındadır ki, ötən il Azərbaycanda neft hasilatı artıb. 2011-ci ildən bəri ilk dəfə hasilatda artım qeydə alınıb. Bu halda 1,5 milyon ton azalmanın olacağına dair məlumat haradan əldə edilib, mən anlaya bilmirəm. İkincisi, götürülən öhdəliyə baxmayaraq, bu il gündəlik hasilatın ən yaxşı halda 17,5-18 min barel azaldılması mümkündür. Çünki “Azəri-Çıraq-Günəşli”dən hasilat azalsa belə, “Şahdəniz”dən kondensat hasilatında artım gözlənilir. Və bu artımın qarşısını almaq da mümkün deyil. Bu şəraitdə ən yaxşı halda hasilatın 18 min barel azaldılması mümkündür".

**Ekspert hesab edir ki, Azərbaycanın götürdüyü öhdəliyə əməl etməməsində ciddi bir problem yoxdur:** “Qazaxıstan keçən il hasilatın 85 milyon ton olacağını gözləyirdi. Bununla bağlı öhdəlik götürmüşdü. Lakin ”Kaşaqan"dan hasilatın artması nəticəsində ili 90 milyon tonla başa vurdu. Yəni öhdəlikdən bir qədər kənara çıxmaqda hansısa ciddi problem görmürəm".

İ.Şabanın sözlərinə görə, ötən il dünya bazarında neftin orta qiyməti bir barel üçün 70 dollar təşkil edib. Bu il üçün orta qiymət 60 dollar olarsa, Azərbaycan hasilatı 20 min barel azaltmaqla gündəlik 1,2 milyon dollar qazancdan imtina etmiş olacaq. Bir il ərzində isə bu itki təxminən 440 milyon dollara yaxın təşkil edə bilər.

Onu da qeyd edək ki, yanvarın 10-da dünya birjalarında neftin qiymətində azalma qeydə alınıb. Londonun ICE (“InterContinental Exchange Futures”) birjasında “Brent” markalı neftin bir barelinin qiyməti 0,58 dollar ucuzlaşaraq 60,86 dollar, Nyu-Yorkun NYMEX (“New York Mercantile Exchange”) birjasında “Light” markalı neftin bir barelinin qiyməti isə 0,59 dollar azalaraq 51,77 dollar təşkil edib.

“Azeri Light” neftinin bir barelinin qiyməti isə 3 dollara yaxın bahalaşaraq 62,49 dollar təşkil edib.

❑ **DÜNYA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

# "Timsah" ləqəbli Zimbabve prezidentini Bakıya gətirən səbəblər

**Asim Mollazadə:** "Bu ölkələr Azərbaycanın BMT-də qeyri-daimi üzv seçilməsinə dəstək verib"
**Qabil Hüseynli:** "Zimbabve prezidentinin səfəri göstərir ki, ölkə dünyaya açılmaq istəyir"

**Zimbabve prezidenti Emmerson Mnanqaqva Azərbaycana səfər planlaşdırır. Bu barədə prezidentin mətbuat katibi Corc Çaramba məlumat verib. E.Mnanqaqva həmçinin Rusiya, Belarus və Qazaxıstana səfər edəcək, eləcə də Davosda keçiriləcək iqtisadi foruma qatılacaq.**

"Azərbaycan və Qazaxıstan zəngin karbohidrogen ehtiyatına malik, sürətli inkişaf edən ölkələrdir. Bundan başqa, energetika və turizm baxımından maraqlı ölkələrdir", - C.Çaramba bildirib.

Zimbabve Azərbaycanla tütün sənayesi və tikinti sahəsində əməkdaşlığa ümid edir. Maraqlıdır ki, Robert Muqabe bu Afrika dövlətinin 40 il prezidenti olub. Qərb KİV-ləri onun haqqında yazırdılar ki, insan əti yeyir. Zimbabve diktatura şəraitində idarə edilən dövlət elan edilmişdi. Daha sonra bəyan olunmuşdu ki, bu ölkədə insan hüquqları pozulur. 2003-cü ildə isə Zimbabve sanksiyalara məruz qaldı. ABŞ Avropadakı müttəfiqləri ilə bu sanksiyaları razılaşdırmışdı. Nəhayət, 2017-ci ildə "adamyeyən" diktator Muqabe barəsində parlament impiçment qərarı qəbul etdi. İstefaya gedən Muqabenin ardınca Emmerson Mnanqaqvanın vitse-prezident postundan uzaqlaşdırılması Zimbabvedə siyasi böhran yaratdı, ordu vəziyyətə müdaxilə etdi. Nəticədə R.Muqabe ev həbsinə məhkum olunmuşdu. Muqabenin həyat yoldaşı, E. Mnanqaqvanın əsas siyasi rəqibi Qreys də partiyadan çıxarılmışdı. Zimbabvenin hakim partiyası xüsusi iclas keçirərək 93 yaşlı prezidentinin sədr postundan kənarlaşdırıb, yeni sədr Emmerson Mnanqaqvanı seçdi.



Mnanqaqva 1980, 2000 və 2008-ci ildə prezident seçkiləri vaxtı opponentləri zorakılıqla əzməkdə, müxaliflərin qətlində, orduya əmr verməkdə ittiham olunurdu. Son Zimbabve olaylarında isə Çinin rolunun olduğu söylənir.

İqtidara gələn kimi yeni prezident xalqa iş və demokratiya söz vermişdi, hətta Muqabenin devrilməsində xidmətlərinə görə orduya təşəkkürünü bildirmişdi. Halbuki o, Muqabenin ən vacib adamlarından biri idi və ədalət naziri işlədiyi dövrdə "Timsah" ləqəbi ilə tanınırdı.

O, radio verilişlərin birində ləqəbi barədə bu sözləri işlətmişdi: **"Bir timsah ovlanmamaq üçün sudan çıxmaz və hücum etmək üçün təmkinlə uyğun zamanı gözləyər".**

"Adamyeyən" Muqabeni əvəzləyən "Timsah" Mnanqaqvanın Bakıya səfəri ilə Azərbaycan-Zimbabve arasında hansı münasibətlər qurulacağı maraq doğurur.

**Deputat Asim Mollazadə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan xarici siyasətində tərəfdaşlığı genişləndirməyə yönəlik iş aparır:** "Ona görə Latın Amerikası və Afrika ölkələri ilə əməkdaşlıq qurulur, bu əlaqələrin coğrafiyası genişləndirilir. İlk növbədə isə bu ölkələr Azərbaycanın BMT-də qeyri-daimi üzv seçilməyinə dəstək verib. Bu baxımdan Azərbaycanın problemlərini beynəlxalq təşkilatlarda qaldırarkən dəstək qazanmışıq".

**A.Mollazadə hesab edir ki, Azərbaycan əlaqələri daha da gücləndirməli, beynəlxalq ictimaiyyətin dəstəyini qazanmalıdır:** "Ona görə bu məsələlərdə siyasi amillər prioritetdir, iqtisadi əlaqələr isə bu münasibətlərin qarşılıqlı nəticələridir".

**Politoloq Qabil Hüseynlinin sözlərinə görə isə müasir dövrün səciyyəvi xüsusiyyəti dünya bazarları uğrunda mübarizədir:** "İnkişaf etmiş və etməkdə olan ölkələr yeni bazarlar axtarırlar, ikitərəfli əlaqələr qurmaqda maraqlıdırlar. Dünyanın əksər ölkələri müasir dövrdə yeni inkişaf etməkdə olan ölkələrlə daha ciddi surətdə maraqlanırlar. Bu bazarlarda istehsal etdikləri məhsulları realizə eləmək, ucuz işçi qüvvəsindən istifadə etmək həmin ölkələr üçün həm iqtisadi cəhətdən, həm siyasi baxımdan sərfəlidir".

**Politoloqun fikrincə, bu baxımdan Azərbaycanın daha geniş coğrafiyaya nüfuz etmə istəyi təqdirəlayiqdir:** "Biz sürətlə inkişaf edən ölkəyik. İstər Latın Amerikası, istərsə Afrika qitəsi ilə əlaqələr qurmaqdan faydalana bilərik. Eyni zamanda iqtisadi təsir dairəsinin genişləndirilməsi bir qayda olaraq siyasi dividentlərin əldə olunması ilə müşahidə olunur. Bizim bu qitələrin bir sıra dövlətləri ilə çeşidli əlaqələrimizin inkişaf edirilməsi Azərbaycanı dünyada tanıtmaqla yanaşı, beynəlxalq təşkilatlarda, BMT-dəki nüfuzuna təsir göstərir. Məsələn, BMT Təhlükəsizlik Şurasının keçici üzvü seçilərkən lehimizə verilən 122 səsin içində adını çəkdiyimiz qitədəki dövlətlərin payı olub. Onu da qeyd edək ki, postsovet məkanında biz BMT TŞ-nin qeyri-daimi üzvü olan ilk ölkəyik".

**Ekspert Zimbabveyə gəlincə qeyd etdi ki, Muqabedən sonrakı prezident ölkədə sosial ədalətin gerçəkləşməsi və dövlətin imici üçün müəyyən addımlar atmağa çalışır:** "Bu da BMT tərəfindən təqdirlə qarşılanır. Zimbabve prezidentinin səfəri göstərir ki, dünyaya açılmaq istəyir, ölkəni dəyişmək istəyir. Ona görə Rusiya, Qazaxıstan, Azərbaycana səfəri, Davos forumunda iştirakı pozitiv enerjili siyasi iradənin nümayiş etdirilməsi kimi səciyyələndirilə bilər. Azərbaycana da ilk dəfə gəlir və əlaqələrin inkişaf etdirilməsi əhəmiyyətlidir. Ümid etmək olar ki, Cənubi Afrika Respublikası nümunəsini götürsək, Afrika ölkələri ilə əlaqələrin şaxələnməsi mühüm rol oynayacaq".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Türkiyə, Rusiya, yoxsa İranın ölkəmizə daha çox təsiri var?

**Politoloq:** "Yalnız Türkiyə Azərbaycanın milli maraqlarına uyğun..."

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yanvar ayında Rusiyaya səfərə gedəcək. Soçidə Türkiyə-Rusiya-İran prezidentlərinin üçlü görüşü olacağı bildirilir. Regionda gedən geosiyasi proseslərin müzakirə ediləcəyi şübhəsizdir.**

Adıçəkilən hər üç ölkə Azərbaycanın yaxın ətrafında yerləşir. Hər üçünün də Azərbaycanda maraqlarının olduğu məlumdur. Bəs bu üç ölkədən hansının Azərbaycana daha çox təsir imkanları və təsiri var?

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a açıqlamasında öncə bildirdi ki, yerləşdiyimiz regionda və Yaxın Şərqdə dövlətlərarası geosiyasi rəqabət kəskinləşməkdədir. Bu gərginlik artıq siyasi müstəvidən hərbi müstəviyə keçib. Ərdoğanın Rusiya səfəri məhz belə bir dövrə təsadüf edir: "Beynəlxalq konyukturada gərginliyə səbəb olan Suriya münaqişəsində Türkiyə, İran və Rusiyanın birgə fəaliyyəti regionda müəyyən qədər problemin həllinə önəmli töhfə verib. Suriya üzrə Türkiyə Rusiya və İran Astana formatı çərçivəsində koordinasiyalı fəaliyyət göstərməklə, atəşkəsin qorunması və İŞİD-in məğlub edilməsində mühüm rol oynayıblar. Məhz bu üç ölkənin birgə səyləri nəticəsində müəyyən qədər Suriyada atəşkəs zonaları yaradılıb. Baxmayaraq ki, Türkiyənin hər iki ölkə ilə Suriya üzrə müəyyən fikir ayrılıqları var, ümumi maraqlar fonunda hər üç ölkə Suriyada terrorizmə qarşı mübarizə, Suriyanın konstitusiyasının hazırlanması və İdlib məsələsini Soçi görüşündə müzakirə edəcəklər. Bu görüş xüsusi tarixi əhəmiyyətə malik görüşdü. 8 illik Suriya müharibəsində yeni mərhələyə keçidi özündə ehtiva edir. Qeyd edim ki, Türkiyə prezidenti Ərdoğan Suriya üzrə dəfələrlə Rusiya prezidenti Putinlə görüşüb iki ölkənin ortaq maraqlarını müzakirə ediblər. Ötən ay Türkiyə heyəti Moskvada oldu, Türkiyənin keçirəcəyi Menbiç və Fəratın şərqinə hərbi əməliyyatları müzakirə etdilər. Türkiyənin maraqları baxımından Soçi görüşü siyasi əhəmiyyət kəsb edir. Artıq ABŞ, Türkiyə ilə Fəratın şərqi və Menbiç məsələsində dərin fikir ayrılıqlarına malikdir. ABŞ YPG-yə qarşı Ankaranın hərbi əməliyyatları əleyhinədir. Belə olan təqdirdə Ankara Soçidə Rusiya və İranla bu hərbi əməliyyatı müzakirə edəcəklər. Rusiya və İran Türkiyənin ABŞ-la fikir ayrılıqlarından məmnundurlar. Çalışırlar ki, bu konflikt dərinləşsin və Türkiyə ilə birgə Suriyada fəaliyyət göstərsinlər. Çünki Türkiyənin ABŞ-la yaxınlaşması hər iki ölkənin təhlükəsizlik maraqlarına ziddir. Soçi görüşündə Suriya və ABŞ-ın regionda siyasəti müzakirə olunacaq. Hazırda Vaşinqton Cənubi Qafqazda da öz mövqelərini gücləndirməyə çalışır. Bu xüsusda Rusiya ilə konfrontasiyaya gedir".



**Politoloq vurğuladı ki, Azərbaycan Cənubi Qafqazın önəmli ölkəsidir və qonşuluğumuzdakı üç böyük dövlətin nəinki Azərbaycana, bütövlükdə Cənubi Qafqaza təsiri var. Xüsusilə Türkiyə və Rusiyanın ölkəmizə təsir imkanları böyükdür:** "Türkiyə qardaş ölkə olaraq Azərbaycanın maraqlarının qorunması və Qarabağ münaqişəsində Azərbaycanı tam dəstəkləyir. Türkiyə yalnız Azərbaycanın milli maraqlarına uyğun təsir imkanlarına malikdir. Rusiyanın da müəyyən qədər ölkəmizə təsirləri var. Bu, xüsusilə Qarabağ münaqişəsindən dolayıdır. Məhz Moskva işğalçı Ermənistan vasitəsilə ölkəmizə müəyyən qədər təsir mexanizmlərinə malikdir. Digər tərəfdən, Rusiya ilə böyük ölçüdə su və quru sərhədinə malikik. İki qonşu ölkə olaraq qarşılıqlı əməkdaşlıq formatında əlaqələr son illər inkişaf dinamizminə malikdir. Təbii ki, Rusiyanın Cənubi Qafqazda geosiyasi maraqları Azərbaycanı da əhatə edir. Soçidə Türkiyə prezidenti Ərdoğan Qarabağ münaqişəsinin həllinin vacibliyi məsələsini qaldıra bilər. Məhz iki ölkə Rusiya və Türkiyə, xüsusilə Rusiya siyasi iradə ortaya qoyub, Türkiyə ilə Qarabağ münaqişəsinin həlli üzrə yeni danışıqlara başlamaq iqtidarına malikdirlər. Hər iki ölkə önəmli məsələlərdə razılıq əldə ediblər. Siyasi şərait var ki, yenidən Ankara və Moskva Qarabağ danışıqlarında da müəyyən razılaşmaya gəlsinlər. Əgər Rusiya buna getməsə, ABŞ regionda güclənəcək. Rusiyanın mövqeyi zəifləməklə paralel Türkiyənin geosiyasi təsirləri artacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019



# Nə donan ölkədir, nə də yanan, çörəyi nədən yavan olsun?

Xalid KAZIMLI

**Dünyanın bir çox ölkələrində yaşayan insanların həyatından, gün-güzəranından bəhs edən sənədli filmlər var, çox maraqlıdır.**

Cənubi Amerikada, Afrikada, Asiyada, Okeaniyada və digər arxipelaqlarda yaşayan xalqların məişəti, dolanışığı, iş-gücü haqda çəkilən bu filmlər acı gerçəkliyi əks etdirir.

Adam bu filmlərə baxır və bilmədiyi çox şeyi öyrənir.

Baxırsan və bilirsən ki, dünyanın 200-dən artıq ölkəsinin heç də hamısı, həttа yarısının yarısı belə xoş gündə yaşamır. Bunların içində Rusiyanın şimal-şərqindəki Oymyakon kimi qəsəbələrdə 50-60 dərəcəlik şaxtada yaşayanlar, Liviyanın 60 dərəcəlik istisində çadır kəndlərdə qovrulan insanlar da var.

Adam ona mat qalır ki, bərəkətsiz torpaqların üstündə il on iki ay canıyla əlləşən, bir parça çörək üçün min il əvvəl yaşamış əcdadları qədər zəhmət çəkən insanlar müasir sivilizasiyadan nə qədər geridədirlər.

O ölkələrdə yaşayan, hələ də primitiv üsullarla ovçuluq edən, heç bir texnikanın yardımı olmadan hər işi əl əməyi ilə görən, bərəkətsiz, susuz torpaqlarda böyük maddi sıxıntı və kasıblıq içində ömr edənlərlə Hollandiyanın, İsveçrənin, Belçikanın, Kanadanın, ABŞ-ın və aqrar sektorunda yüksək tərəqqiyə nail olan digər ölkələrin kəndliləri arasında fərq yerlə göy qədərdir.

Deyilə bilər ki, kasıb ölkələrin iqlimi ilə dünyanın firavan ölkələrinin iqlimi, torpağı eyni deyil. Elədir. Elə ölkələr var ki, sudan və günəş işığından qətiyyən sıxıntısı yoxdur, torpağı da bərəkətlidir, nə əksələr bitir, becərilir.

Ancaq ortada bir İsrail təcrübəsi də var. İsrailin iqlimi və torpağı demək olar ki, coğrafi baxımdan yaxınlığında və ya eyni iqlim qurşağında yerləşən ölkələrlə eynidir, ancaq bizim Qarabağ boyda ərazisi olan yəhudi dövləti nəinki özünü kənd təsərrüfatı məhsulları ilə təmin edir, hətta dünyaya ərzaq satır.

O cür sənədli filmləri izləyəndən sonra istər-istəməz dünyanın ən bərəkətli torpağının üzərində, ən optimal iqlim şərtlərinə malik paralelində yaşadığını düşünürsən.

Gerçəkdən də ölkəmizin hər şeyi var - bol günəşi, bol suyu, bərəkətli torpağı, yaşıllığı, zəhmətkeş insanları, modern kənd təsərrüfatı texnikası tədarük etmək üçün kifayət edəcək qədər maliyyə resursları və s.

Bəs nə çatmır ki, Azərbaycan özünü kənd təsərrüfatı məhsullarıyla, onlardan hazırlanan yarımfabrikat ərzaqlarla təmin edə bilmir?

Yumşaq kresloda oturub "kəndli supermarketə niyə getsin" deyə ritorik sual qoymaqla iş bitmir, fakt odur ki, Azərbaycan kəndlisi hollandiyalı, isveçrəli fermerlər kimi yüksək məhsuldarlıq əldə edə bilmir.

Biz düşüncə etibarilə hələ də planlı sovet təsərrüfatı dönəmində - kolxozlar və sovxozlar erasında ilişib qalmışıq.

Günü bu gün yüksək dairələrdə kənd təsərrüfatının inqilabi sıçrayışla inkişaf etdirilməsi məsələsi müzakirə olunsa, mütləq bir çox "islahatçılar" sovxoz-kolxozun bərpası təşəbbüsü ilə çıxış edəcəklər.

O isə keçilmiş, geridə qalmış, böyük ölçüdə özünü doğrultmamış təsərrüfat modelidir. İsmayıllı rayonundakı İvanovka kəndinin sovet dönəmindən bəri dillər əzbəri olan kolxozunu nümunə göstərmək istəyənlər isə bilməlidirlər ki, o təsərrüfat subyekti SSRİ dönəmində də, indi də İsrail kibutsaları kimi fəaliyyət göstərib və onun uğurunun başlıca səbəbi budur.

Danmağın lüzumu yoxdur, bizim xalq fərdiyyətçiliyə meylli olduğundan bütün mahiyyəti ilə kollektiv təsərrüfat sisteminə qarşıdır. Elə ona görə də ötən əsrin 30-cu illərində zorla, kəndlilərin repressiya edilməsilə yaradılan kollektiv təsərrüfatlar SSRİ-nin dağılmasıyla bir anda buxarlanıb yox oldular.

Onların yerində isə effektiv təsərrüfat vahidləri yaranmadı. Yerlərdə ayrı-ayrı varlı, imkanlı fermerlər var, amma onlar ölkəni ərzaq məhsulları ilə bola-bol təmin etməyə qadir deyillər.

Yenə də kənd təsərrüfatıyla yüz milyardlar qazanan, öz istehsal etdiyi məhsulları emal edərək əlavə yüz milyardlar əldə edən ölkələrin təcrübəsini öyrənmək, tətbiq etmək lazımdır. Ümumiyyətlə, aqrar sektor elmi əsaslarla, innovasiya ilə idarə olunmalıdır.

Bunun üçün bizdə bütün imkanlar var. Bura əbədi donuşluqlar və qovrulmuş qumlar ölkəsi deyil. Buralarda bircə banan yetişmir, onun da eybi yoxdur. Lap yaxşı, banan respublikası olmaq bir şey deyil.




# Bələdiyyə seçkiləri niyə 27 dekabra təyin edilib-reaksiya

## Tural Abbaslı: "Bunun məntiqi izahı verilsə, yaxşı olar"

**Azərbaycanda 2019-cu il bələdiyyə seçkiləri dekabrın 27-də keçiriləcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiqlənən 2019-cu ilin iş vaxtı norması və istehsalat təqvimində xatırladılıb ki, Seçki Məcəlləsinə əsasən, bələdiyyələrin səlahiyyət müddəti 5 ildir.**

Bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası təyin edir və bələdiyyə seçkilərinin təyin edilməsi barədə qərar onun qəbul edildiyi gündən ən geci 2 gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir. 2019-cu ilin iş vaxtı normasının hesablanması məqsədilə rəsmi elan olunanadək şərti olaraq istehsalat təqvimində 2019-cu ilin 27 dekabr tarixi iş günü hesab edilməyən bələdiyyə seçkiləri günü kimi nəzərə alınır.



Qeyd edək ki, Azərbaycanda ilk dəfə bələdiyyə seçkiləri 1999-cu il dekabrın 12-də keçirilib. Beş ildən bir keçirilən bələdiyyə seçkiləri o zamandan bəri dekabrda baş tutur. Son bələdiyyə seçkiləri isə dekabrın 23-də olub.

Növbəti bələdiyyə seçkilərinin bayram tətilinə cəmi bir gün qalmış-dekabrın 27-nə təyin edilməsi isə birmənalı qarşılanmayıb. Bir sıra siyasətçilər hökumətin bu addımında siyasi məqsəd olduğunu iddia edirlər. Bu qənaətə gələnlər hesab edirlər ki, insanların bayram əhval-ruhiyyəsinə köklənməsi, bayram hazırlıqlarında olması 27 dekabrda keçiriləcək seçkilərə marağı daha da azaldacaq, seçki aktivliyi aşağı düşəcək. Xüsusilə seçkidən sonrakı günlərdə passivlik heç vaxt olmadığı səviyyədə olacaq, bayrama başı qarışan insanların seçki pozuntularına reaksiyası başqa dövrlərlə müqayisədə yox səviyyəsinə düşəcək. Bu iddiada olanların düşüncəsinə görə, hökumət elə bu məsələləri nəzərə alaraq seçkiləri bayram ərəfəsinə təyin edib.

**AĞ Partiyanın sədri Tural Abbaslı isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hakimiyyətin növbəti bələdiyyə seçkilərini dekabr ayının son günlərinə salmasının hansısa siyasi bir məqsədə hesablandığı barədə deyilənləri bölüşmür:** "Bu qətiyyən o anlama gəlməsin ki, mən hakimiyyəti demokratik qəbul etdiyim üçün belə düşünürəm. Sadəcə olaraq, heç kəsə sirr deyil ki, Azərbaycanda bələdiyyələrin dövlətin siyasi, iqtisadi və sosial həyatında heç bir real rolları və təsir imkanları yoxdur. Dünyanın bir çox ölkələrində yerli özünü idarəni həyata keçirən və demək olar ki, ölkələrin sosial-iqtisadi həyatlarına yön verən bələdiyyələr Azərbaycanda formal xarakter daşıyır. Bizdə bələdiyyələr yerli icra hakimiyyəti orqanlarının beşinci təkəri rolunu oynayır və insanların gündəlik həyatlarında qətiyyən ciddi heç bir rola malik deyil. Hətta bir az da irəli gedərək onu deyə bilərəm ki, bir çox bələdiyyə üzvləri artıq guya seçildikdən sonra namizədliklərinin olduğunu və seçildiklərini öyrənirlər. Bu halın şahidi şəxsən özüm olmuşam. Hətta hansı bələdiyyələrin üzvləri və sədrləri kim olacaq məsələsini bir çox hallarda yerli icra hakimiyyəti başçıları müəyyənləşdirir. Yəni bu seçkilərə nə xalq, nə müxalifət, nə də iqtidar seçki kimi baxmır. Sadəcə olaraq, zamanında Avropa qurumları qarşısında götürülən öhdəlik kimi formal olaraq bələdiyyələr mövcuddur. Təbii ki, bu halı biz AĞ Partiya olaraq çox ziyanlı hal hesab edirik. Belə ki, çox uzağa yox, qonşumuz qardaş Türkiyə dövlətinə nəzər salsaq görərik ki, bələdiyyələr hansı gücə və səlahiyyətlərə malikdirlər. Buna adekvat olaraq da orada keçirilən bütün seçkilər arasında ən qızğın rəqabət məhz bələdiyyə seçkiləri zamanı yaşanır".

**T.Abbaslı hesab edir ki, bələdiyyə seçkilərinin hansı gün keçirilməsindən asılı olmayaraq bu seçkilərdə aktivlik olmur. Yəni hökumətin bələdiyyə seçkilərindən narahatlığı üçün əsas yoxdur:** "Əslində texniki baxımdan yanaşsaq bizdə də bu seçkilərə xalqın diqqəti yüksək olmalıdır. Çünki təqribən 30 min bələdiyyə üzvü yerinə seçkilər keçirilir və bu yerlərə 100 mindən artıq namizəd iddialı ola bilir. Bu miqyasda namizədin və maraqlı tərəflərin iştirakı ilə keçirilən seçkilərə marağın hansı səviyyədə olmalı olduğunu artıq özünüz düşünün. Ancaq bir daha qeyd edirəm, Azərbaycanda bələdiyyələrin real statusları bu seçkiləri tamamilə maraqsız edir. Odur ki, bu qədər əhəmiyyətsiz seçkilərə görə iqtidarın hansısa xüsusi bir plan hazırladığı və hətta buna uyğun olaraq bayram ərəfəsində seçki təyin etməsi mənə inandırıcı gəlmir. Eyni zamanda niyə məhz 27 dekabrın seçilməsinin də məntiqi izahı verilsə yaxşı olar".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Britaniya səfiri ilə görüşdü

**Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Böyük Britaniyanın Bakıdakı səfiri Karol Krofts ilə görüşüb.**

"Report" xəbər verir ki, bunu icma rəhbəri bildirib.

"Görüş zamanı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının işğal olunmuş ərazilərimiz azad edildikdən dərhal sonra geri dönmək əzmində olduğunu səfirin diqqətinə çatdırdım. Eyni zamanda Dağlıq Qarabağ bölgəsinin erməni icması ilə konstruktiv dialoqa hazır olduğumuzu və bu məqsədlə təmaslar qurulmasının tərəfdarı olduğumuzu qeyd etdim", - deyə T.Gəncəliyev vurğulayıb.

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

**Son iki ildə Azərbaycan turizmində müəyyən qədər inkişaf tempi müşahidə edilməkdə idi və bunun ən bariz göstəricisi də ərəb turistlərinin axını hesab olunurdu. Lakin son vaxtlar həm paytaxtda, həm də bölgələrdə ərəb turistlərə daha az rast gəlinir. Bunun bir səbəbi kimi, Azərbaycanda xidmət və iaşə sektorunda qiymətlərin baha olması göstərilir.**

# İraqlı turistlər üçün vizanın ləğvinin sensasion səbəbləri

## Azərbaycan əleyhinə kampaniya, radikal dini qruplar...



Digər səbəb isə İraq turistləri üçün sadələşdirilmiş viza rejiminin ləğv edilməsidir. Sonuncu fikri turizm eksperti Firdovsi Xəlilov fed.az-a açıqlamasında səsləndirib. Onun sözlərinə görə, son bir ilədək Azərbaycana gələn iraqlı turistlər vizanı sadələşdirilmiş şəkildə sərhəddə ala bilirdilər. Bu da həmin ölkədən turist axınını sürətləndirirdi: "Viza sərhəddə veriləndə İraqdan Azərbaycana böyük axın oldu. İraq vətəndaşları nisbətən aşağı seqmentli hotellərdə qalsalar da, "kəş" dollar xərcləyirdilər, AVM-lərdə alış-veriş edirdilər və fayda gətirirdilər. Adamlar nağd pul xərcləyirdilər, bütün sektorun sevdiyi müştərilər idilər".

İraqlı turistlərə aeroportda verilən vizanın ləğv edilməsinin səbəbləri ilə bağlı isə müxtəlif fikirlər var. Bunlardan biri də İraqda Azərbaycan əleyhinə kampaniya aparılmasıdır. Belə ki, iraqlı blogger Ali Ətthabın Azərbaycana gələn ərəb mənşəli turistlərin həyat tərzi haqqında hazırladığı reportajda səsləndirdiyi bəzi iddialar müzakirələrə səbəb olub. Onun "8000 ərəb Azərbaycanda QİÇS-ə yoluxub" iddiası aidiyyəti qurumları da hərəkətə gətirib. Həmçinin İraq cəmiyyətində ərəblərin burada əxlaqsız həyat tərzi sürməsi və ölkəmizdə bu cür məkanların kütləvi olması ilə bağlı ictimai rəy formalaşdırılması da sadələşmiş vizanın ləğv edilməsində əsas səbəblərdən biri olub.

**"Yeni Müsavat"ın yazarı Kənan Rövşənoğlu bildirdi ki, iraqlılara sadələşmiş vizanın ləğvi daha çox o ölkədə Azərbaycan əleyhinə aparılan kampaniya ilə bağlıdır:** "Son illərdə daha çox iraqlılar ölkəmizə turist olaraq gəlirdir, onlarla bağlı bir çox problemlər yarandı. Əsasən də 400-500 dollarlıq paketlərlə gəlirdilər, əyləncə məqsədi ilə, ailəli olmayan tək adamlar daha çox gəlirdilər. Bu səbəbdən onlar arasında əxlaqsızlıq yayılmışdı. Ötən il İraq televiziyası Bakıya gələrək burada yarım saatlıq geniş bir reportaj hazırladı, daha sonra o, internetdə yayıldı. Bildirilirdi ki, guya burada 600 nəfərdən çox iraqlı QİÇS və digər cinsi xəstəliklərə yoluxub, 8 nəfər dünyasını dəyişib. Bu bir qədər də Azərbaycana qarşı anti-kampaniya xarakteri daşıdı. Bakıdakı barlar və sair işıqlandırıldı, orada cinsi xidmətlərin göstərilməsi, xəstəliklərin yayılması və sair məlumatlar yayımlandı. Bu, ölkənin imicinə də ziyan vurdu. Çox güman ki, hökumət daha çox buna görə iraqlı turistlərin səfərinin qarşısını almaq üçün sadələşmiş vizanı ləğv etdi. Eyni hal 10 il öncə Gürcüstanda da yaşanmışdı, daha sonra hökumət iraqlılara sadələşmiş viza rejimini ləğv etmişdi. Bundan başqa, hazırda İraqda münaqişə var, orada insanlar həm iş, həm də turizm üçün ölkəni çox asanlıqla tərk edirlər".

**Natiq Cəfərli isə hesab edir ki, bu qərar həm də təhlükəsizlik məsələləri ilə əlaqədar ola bilər:** "İraqdan Azərbaycana müəyyən sızmaların olmaması üçün, radikal dini qrupların üzvlərinin ölkəmizə gəlməsinin qarşısını almaq üçün, gələnlərin daha ciddi yoxlamalara məruz qalması üçün belə bir qərar verilib. Son illəri götürsək İraqdan gələn turistlərin sayında dəfələrlə artım olurdu ki, bu da ölkənin turizm bazarında mühüm rol oynayırdı. Gələn turistlərin sayının artması Azərbaycanın turistik obyektlərinin gəlirlərinin artmasına, ümumiyyətlə, turizm gəlirlərinin artmasına da müəyyən kömək edirdi. Ola bilər ki, xüsusi xidmət orqanlarında müəyyən sızmaların olması ilə bağlı məlumatlar olub. Təhlükəsizlikdən başqa hər hansı səbəblə bunu izah etmək çətin olar. Dövlətlər arasında çox normal münasibətlər var, hər hansı gərginlik olmayıb ki, bu sadələşmiş vizanın ləğvinə səbəb olsun. Çox güman ki, səbəb təhlükəsizlik məsələsidir".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**



# Novruzda əfv olacaq

**Bu il Novruz bayramı ərəfəsində əfv sərəncamının imzalanacağı gözlənilir. Bunu modern.az-a açıqlamasında Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü Əlimməmməd Nuriyev bildirib.**

Ə.Nuriyev qeyd edib ki, ötən ilin may ayında Cümhuriyyətin 100 illiyi ilə bağlı prezident tərəfindən imzalanan böyük əfv sərəncamı ilə 634 məhbus cəzadan azad edilib: "O cümlədən onların arasında 609 nəfər azadlıqdan məhrumetmə cəzasının qalan hissəsindən azad edilib. Həmin əfv sərəncamı miqyas etibarilə kiçik amnistiya da adlandırılır. Baxmayaraq ki, əfv və amnistiya tamamilə fərqli institutlardır".

Hüquqşünas bildirib ki, əfv sərəncamları 2018-ci ilədək adətən Novruz bayramı ərəfəsində verilib: "Bu səbəbdən də növbəti Novruz bayramı ərəfəsində əfv sərəncamının imzalanması gözlənilir. Əfv Komissiyasının katibliyi və əfv sektoru daimi işləyir, mütəmadi olaraq müraciətləri qəbul edir. Həmçinin müraciətlərlə bağlı qanunvericilikdə nəzərdə tutulmuş addımlar atılır. Bütün prosedurlar tamamlandıqdan sonra müvafiq arayışlar Əfv Komissiyasının sədri Ramiz Mehdiyevə təqdim olunacaq. Komissiyanın iclaslarının çağırılması cənab sədrə məxsusdur. Amma əfv sərəncamının verilməsi təbii olaraq, prezidentin konstitusion səlahiyyətlərinə daxildir".

**Dünyanın 4-cü iqtisadi nəhəngi sayılan Almaniya BMT Təhlükəsizlik Şurasının (TŞ) 6-cı daimi üzvü olmağa çalışır. Almanların buna haqqı çatır. Ancaq Türkiyənin daha böyük haqqı var. Çünki dünyanın taleyini həll edən TŞ-nin 5 daimi üzvü arasında bircə müsəlman dövləti də yoxdur. Onlardan dördü xristian (ABŞ, Fransa, İngiltərə, Rusiya), 5-cisi isə Çindir.**

**Zahid SƏFƏROĞLU**



# Milyardlıq müsəlmanların batırılan səsi, yeri görünən Türkiyə



Bu həmin Çindir ki, mədəni dünyanın gözü qarşısında, XXI əsrdə (!!) neçə ildir yüz minlərlə köklü uyğuru, türkdilli digər etnosları "yenidən tərbiyə" və "cəmiyyətə inteqrasiya" bəhanəsi ilə konslagerlərə, rezervuarlara doldurub terrora məruz qoyur, assimilyasiya eləmək istəyir.

Beləcə, 70 ildir 1 milyardlıq müsəlmanın taleyini ateist-kommunist Çin də daxil olmaqla, 5 qeyri-müsəlman dövləti həll edir. Onların əksəriyyətində islamofob ovqat, türkofobiya zaman-zaman "fontan" vurub. Çini dedik. ABŞ-da isə hətta müqəddəs Quranı belə yandırıblar, Fransada İslam peyğəmbərini dəfələrlə təhqir ediblər.

Bununla iş bitsəydi dərd yarıydı. Bu gün dünyanın ən qaynar məntəqələri müsəlman Şərqindədir. Müharibələr, dağıntılar, qan-qada əsasən oradadır. Qlobal xristian güclər müsəlman ölkələrinin torpaqlarını əsl savaş meydanına çevirib. Günahsız müsəlmanların, uşaqların qətliamı, insanların öz yurd yerlərindən kütləvi köçü səngimir. Bu gün Yəməndə on minlərlə uşağın aclıq keçirməsinin babalı də aralarında bircə müsəlman dövlətinin olmadığı TŞ-nin 5 daimi üzvünün vicdanına yazılmalıdır...

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yüzdə yüz haqlıdır deyəndə ki, dünya 5 dövlətdən ibarət deyil. Gerçəkdən də, necə olur, bu qurumda 2 milyardlıq xristian dünyasının, 1 milyardlıq buddist-ateist çinlilərin veto hüququna malik təmsilçi dövləti var, amma 1 milyard yarım müsəlman toplumunun yoxdur? Ədalətlidirmi? Yox, əlbəttə. Təkcə buna görə BMT-ni dünya xalqlarının maraqlarını xidmət edən beynəlxalq təşkilat saymaq olmur.

Şübhə yox ki, qardaş məmləkət timsalında belə bir müsəlman üzv dövlət olsaydı, BMT TŞ-nin Qarabağa dair qətnamələrinin taleyi də acınacaqlı olmazdı. Deyilə bilər ki, BMT dünya siyasətində həlledici söz sahibi ola bilməyib, çünki TŞ-nin 5 daimi üzv ölkəsi arasında da çəkişmə, didişmə, maraqlar toqquşması var. Ancaq çifayda? Nə sirdirsə, onlar islam ölkələrinə qarşı, onların dirçəlməsinə və güclənməsinə qarşı qəribə və gizli bir həmrəylik nümayiş etdirirlər.

Xüsusən də müsəlman dünyasının ən qüdrətli və avanqard dövləti olan Türkiyəyə qarşı ortaq qısqanclıq ortadadır. O da var ki, xristian anqlo-sakson birliyi BMT TŞ-nin qərarlarından özlərinin strateji məqsədlərinə çatmaq üçün məharətlə yararlanır, o sırada təbii ehtiyatlarla zəngin müsəlman torpaqlarında siyasi və hərbi cəhətcə möhkəmlənməkdən ötrü daim şirma kimi istifadə edirlər. Müsəlman toplumunun başını özünə qatılması, bir-birini qırıb çatması üçün, birləşməməsi üçün əsrlərdir İŞİD timsallı məkrli ssenarilər, planlar qurub həyata keçirirlər. PKK/YPG/PYD terror tör-töküntülərinə hər cür dəstək verib Türkiyənin üstünə göndərmək, qardaş ölkəni bölgədə zəiflətmək cəhdləri də eyni qəbildəndir. Belə bir dəstək olmasaydı, Türkiyə çoxdan onların kökünü kəsmişdi...

Bu günlərdə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton bölgəyə səfəri zamanı eyni hədəfi yetərincə açıq mətnlə dilə gətirdi. Dedi ki, ABŞ Suriyadan çıxsa da, kürdlərin (oxu: kürd terrorçuların) təhlükəsizliyinə Ankaradan zəmanət istəyəcək. Türkiyə əleyhinə sadiq müttəfiqləri darda qoymaq olmaz axı. Az öncə PKK/YPG terrorçularına analoji dəstəyi Fransa prezidenti E.Makron bəyan eləmişdi.

Türkiyənin cavabı təbii ki, gecikmədi. Ərdoğan Boltonun cavabını sərt formada verdi, onu nümayişkaranə şəkildə qəbul etmədi. Bolton pərt edildi. Üstəlik, bu mövqeyə görə Türkiyə müxalifəti və ekspert çevrələri tərəfindən də Amerika kəskin şəkildə qınandı.

Nəhayət, BMT TŞ-nin Qarabağ məsələsində vasitəçi olan 3 daimi üzvünün - Rusiya, ABŞ və Fransanın işğalçı Ermənistana qarşı gizli-açıq xristian həmrəyliyini, separatçıların lideri Bako Saakyanı zaman-zaman öz qoynuna alıb ona nəvaziş göstəməsini necə gözardı edəsən?..

Türkiyənin yeri necə də görünür. Təkcə vasitəçilikdə yox, həm də BMT TŞ-nin daimi üzvləri sırasında... Bəlkə onda dünyada ilahi və dünyəvi ədalət qismən bərpa ola, cahanda bunca qarışıqlıq və allahsızlıq olmazdı...

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019



# Vətəndaşlıq borcumuz

Zamin HACI
zaminhaci@gmail.com

"Borc ki oldu yüz,
Gir içində üz"

**(Ata sözü)**

**Bankdan milyonları oğurlamış adamlar xaricə qaça bilirlər, ancaq hansısa 2-3 minlik kreditlər üzündən camaatı sərhədi keçməyə qoymurlar. Qaytarılmayan kreditlər ciddi problemə çevrilməkdədir. Əslində mən buna bir tərəfdən yaxşı baxıram, heç olmazsa kreditlə vətənə bağlanırıq, atıb getmirik. Yoxsa bu camaatın başını bir az boş buraxsan sabah ölkədə bir adam qalmayacaqdır. Yalandan vətən mahnıları oxumağımıza baxma. Bizim vətən məhəbbətimiz evin qapısı ağzında bitir - içəri tərəfdən. O evi də hansı ölkədə tikdin, aldın, basıb içinə girdin, fərqi yoxdur. Hələ bu dabana tüpürməklərə saxta kədərli bayatılar da qoşmuşuq. Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşıymış. Bah. Elə bil vətəni qəbiristanlığa çevirməyi öhdəmizə götürmüşük. Zəhmət çəksin, hərə ölsün öldüyü yerdə. Bizə meyit yox, canlı insanlar lazımdır. Mən hökumətin yerində olsam (ümid edirəm əlaqədar orqanlar bunu oxuyan kimi məni hökumətin işinə cəlb edəcəkdir) xaricdə yaşayıb ölənlərin burada dəfn edilməsini qadağan edərdim. Onsuz bir azdan qəbiristanlıq əlindən yaşamağa yerimiz qalmayacaqdır. Həyatını başqa ölkələrə, xalqlara sərf edənlərə torpaq borcumuz yoxdur. Qəddar görünmək istəməzdim, ancaq hökumətin yerində olmağı qarşıma məqsəd qoyduğum üçün məcburam.**

Borc məsələsinin ciddi olmasını keçən ilin sonunda bir kriminal hesabatdan da duymuşdum. Polisin gündəlik hesabatında təxminən belə deyilirdi ki, filan gün 28 cinayətin üstü açılmışdır, onlardan 27-si borc iddiaları üzrə axtarışda olan şəxslərin tapılıb yaxalanması ilə bağlı imiş. Təsəvvür edin. Az qala bütün tutulanlar, saxlananlar kredit, borc söhbətləri üstündə idi. Mən deyə bilmərəm, məhz o gün o statistikanın ortaya çıxması bəlkə bir təsadüf idi, kriminal hesabatları xüsusi olaraq izləmirəm. Ancaq başqa cinayətlərdə, o cümlədən qətl, xəsarət, soyğun və sairə kimi ağır cinayətlərdə də borc, kredit izləri adətən tapılır. Görürsən adam borclu olur, verə bilmir, aldığı adamı öldürür. Yaxud krediti qaytara bilmir, soyğunçuluq edir. Borca düşür, intihar edir və sairə. "Borclu borclunun sağlığını istər" ata sözümüz hazırda hansısa qüvvəyə malik deyildir. Bu söz devalvasiyaya uğramışdır.

İntihardan söz düşmüşkən, məni xeyli vaxtdır narahat edən bir ictimai problemdən nəhayət yazmaq istəyirəm, yoxsa tarix məni bağışlamaz. Bu, gənc şair və yazıçıların intiharı məsələsidir. Elə bir ay olmaz ki, hansısa AYB üzvü özünü öldürməsin. Lakin AYB sədri Anar müəllim, onun müavinləri Çingiz Abdullayev və Fikrət Qoca, o cümlədən Rəşad Məcid bu problemi görməzliyə vururlar. Lap hesab edək Anar müəllim və Fikrət müəllimin kriminal hadisələri çözmək qabiliyyəti zəifdir, bəs dedektiv (ya da detektiv - mənim bu lənətə gəlmiş sözün düzgün yazılışını yadda saxlamaqdan zəhləm gedir; gör bizim beynimizin neçə meqabaytı belə səfeh bilgilərlə doludur: lahiyə doğrudur, yoxsa layihə, məhşur yazmalıyıq, ya məşhur, o-dan sonra vergülü haçan qoymalısan, nə bilim, hansı ərəb sözü iki r ilə yazılır və sairə) Çingiz müəllimə nə sözünüz? Bunlar şairlərin intiharını araşdırmalı, lazımi nəticələr çıxarmalıdır. Yoxsa necə olur, jurnalistlərin bir balaca dırnağı qırılanda Əflatun müəllim bütün dövləti ayağa qaldırır, artistlərin, manısların, bəstəkarların, mollaların, müəllimlərin və sairə peşə sahiblərinin də öz himayədarları, ruporları, səsgücləndiriciləri vardır, yalnız şairlər yiyəsiz kimi görünürlər, ədəbiyyat nazirimiz Anar müəllim onların dərdi ilə maraqlanmır. Əks halda, şairlərin hər ay birinin özünü öldürməsinə çarə tapılardı. O necə generaldır ki, əsgərlərinin intihar etməsinə cavabdeh olmasın? O necə sənətkardır ki, tabeliyində adamlar yaşaya bilməsin? Mən hansı bir insana bənzədim ki...

Bəli, ümid edirəm daha şairlərimiz ölməz, vətən bölünməz.

---

**Ermənistanın sabiq prezidenti, Xocalı hərbi canilərindən olan Robert Köçəryan yenə həbsdə saxlanılıb. "Yeni Müsavat"ın erməni qaynağına istinadən verdiyi xəbərə görə, dünən İrəvanın Şenqavit rayonundakı birinci instansiya məhkəməsi eks-prezidentin girov qarşılığında sərbəst buraxılması barədə vəkilin vəsatətini təmin eləməyib.**

# İrəvandan Kremlə qarşı de-mars: Xocalı canisi Moskva ilə bazarlığa çıxarılır

## Paşinyan Yeni ilini Putinin şəxsən təbrik etdiyi Köçəryanı yenə həbsdə saxladı - məhkəmə qərarının arxasındakı əsas hədəf; **erməni nəşri:** "Putin üçün Köçəryan mühüm fiqurdur, çünki..."




Məlumata görə, proses qeyri-müəyyən vaxta qədər təxirə salınıb. Buna hakim Nelli Bağdasaryanın işə baxmaqdan könüllü imtinası səbəb olub. Köçəryanı pul girovu ilə azadlığa buraxmaq vəsatətini sabiq prezidentin vəkilləri qaldırıb. Ötən il dekabrın 28-də proses istintaqın təklifi ilə təxirə salınmış, srağagün - yanvarın 9-da isə yarımçıq qalmışdı.

Xatırladaq ki, Köçəryan 10 nümayişçinin öldürüldüyü 2008-ci il 1 mart qanlı hadisələrində əsas günahkar qismində tanınır. O vaxt o, prezident postunu tuturdu. Ermənistanın hazırkı baş nazir əvəzi Nikol Paşinyan isə prezident seçkisinin saxtalaşdırılması əleyhinə keçirilmiş həmin dinc etiraz aksiyalarının əsas təşkilatçısı idi.

*****

Onu da yada salaq ki, az öncə Rusiya prezidenti Vladimir Putin Nikol Paşinyanın qatı düşməni, həbsdə olan Robert Köçəryana şəxsən Yeni il təbriki göndərmiş və ona "möhkəm cansağlığı, dəyanət və iradə möhkəmliyi" arzulamışdı. Bu, şübhəsiz ki, Kremlin ona nümayişkaranə siyasi dəstəyi, Ermənistanın ikinci prezidentinin həbsinə etirazın bariz təzahürü idi.

Maraqlıdır ki, Putin Qarabağ klanının digər odioz üzvü, Nikol Paşinyan tərəfindən devrilmiş eks-prezident Serj Sərkisyanı da şəxsən təbrik eləmişdi. Bütün bunlar həm də o anlama gəlir ki, Moskva Ermənistanda Köçəryan-Sərkisyan cütlüyünə stavkasını davam etdirir və onların fors-major vəziyyətdə indiki inqilabçı hökumətə, zəhləsi getdiyi Nikola qarşı əsas alternativ qüvvə kimi ortaya çıxmasını, siyasi səhnəyə qayıtmasını arzulayır. Bu niyyətini heç gizlətmir də.

Göründüyü kimi, Paşinyan Putinin bu təhdid xarakterli jest və mesajlarına, üstəlik, özünün Moskva səfərindən sonra Ermənistana satılan qazın bahalaşmasına Kremlin gözləmədiyi reaksiyanı verib. Faktiki, Moskvaya qarşı de-marş edib. Bir daha Rusiya qarşısında müstəqil olmaq istəyini ifadə edib. Rusiya nəşrlərindən birinin yazdığı kimi, "Paşinyan Moskva üçün həqiqətən çətin, proqnoza yatmayan tərəfdaşdır və bu üzdən 2019-cu ildə Moskva-İrəvan münasibətləri qalmaqallarla zəngin olacaq".

Bu yerdə onu da qeyd edək ki, Rusiya Ermənistana satdığı qazı bahalaşdırdıqdan dərhal sonra Paşinyan İrandan daha ucuz qaz tədarükü ilə bağlı Tehranla müzakirələrə başlayacağını istisna eləməmişdi. Təbii ki, bu açıqlama da Moskvaya qarşı başqa bir şantaj idi. Beləliklə, qənaət hasil olur ki, Moskva ilə İrəvan arasında 8 aydır təkcə söz savaşı getmir, eyni zamanda, ikitərəfli münasibətlər, daha dəqiqi, Ermənistanın Rusiyadan vassal asılılığı ciddi bir sınaqdan keçir.

*****

Bu xüsusda erməni KİV-lərində gedən şərhlər də diqqət çəkir.

**Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, 1 in.am erməni portalında siyasi təhlilçi Sərkis Arsruni Paşinyan-Putin münasibətlərinə Köçəryan əngəlinə toxunaraq yazır:** "Belə təəssürat yaranır ki, Ermənistan hökumətinə hələ də Köçəryan məsələsini İrəvan-Moskva əlaqələrinin gündəmindən çıxarmaq müyəssər olmayıb. Əlbəttə ki, bunu ucadan demirlər, ancaq heç bir şübhə yox ki, Paşinyan-Putin görüşlərində də Ermənistanın ikinci prezidentinin məsələsi müzakirə edilir və ya ən azı, Ermənistanın baş nazirinə rus-erməni münasibətlərini Köçəryanın kölgəsindən çıxarmaq müyəssər olmur. Hiss olunur ki, Moskva bu məsələdən İrəvana kölgəvi təzyiq üçün istifadə edir".

**Köçəryanı erməni kriminal oliqarxiyasının yaradıcısı sayan məqalə müəllifinə görə, bu sistemin simvolunun həbsi köhnə oliqarxik sistemin ölümünü təsdiqləyən böyük hadisədir:** "Başqa sözlə, problem heç də Köçəryanın personasında yox, Rusiyanın Ermənistana təsirini azaldacaq bir sistemin çöküşündədir. Başqa yandan, Putin üçün Köçəryan mühüm fiqurdur, çünki Rusiyanın hazırkı prezidenti və Ermənistanın sabiq prezidenti - 27 oktyabr cinayətinin (27 oktyabr 1999-cu ildə Ermənistan parlamentinin güllələbaran edilməsi - "YM") əsas iki fiqurantıdır. Məhz həmin hadisədən sonra Ermənistanda Rusiyanın vassal rejimi bərqərar oldu və Köçəryanın şəxsi hakimiyyəti möhkəmləndi".

**Köçəryanın sonrakı siyasi taleyinə toxunan erməni şərhçi daha sonra qeyd edir:** "Ötən ilin sonunda Köçəryanın girov qarşılığında azad edilməsi haqda vəsatətə baxılmadı və təxirə salındı. Dünən (srağagün - red.) də eyni şey baş verdi. Əlbəttə ki, Köçəryanı həbsdə saxlamaq üçün bütün əsaslar var. Üstəlik, belə ağır cinayətlərdə suçlananlar nadir hallarda azadlıqda olur - hətta Qərb ölkələrində də belədir. Yəni sırf hüquqi müstəvidə ilk baxışda hər şey aydındır. Başqa yandan, əgər bu gün hakim namizədliyini geri çəkirsə, o zaman məhkəmə iclası qeyri-müəyyən müddətədək təxirə salına və uzana bilər. Görünür, ən çox ehtimal edilən ssenari də elə budur. Bu da o qənaətə gəlməyə əsas verir ki, Ermənistan hakimiyyəti Moskvanın Köçəryanla bağlı tələbini yerinə yetirməklə bağlı vaxt udmağa və ya erməni-rus münasibətlərini ikinci prezidentlə bağlı problemdən qurtarmağa çalışır. Böyük hesabla, gec-tez Robert Köçəryan məhkəmə qarşısında duracaq və 1 mart hadisələrinə, həmçinin də digər ağır cinayətlərə görə cavab verəcək. Hələliksə əfsus ki, onun komandası taktiki vəzifəni yerinə yetirə bilib - Köçəryanın işi maksimum siyasiləşdirilib. Üstəlik, Köçəryan faktoru Rusiya-Ermənistan münasibətlərində Paşinyanın əl-qolunu ciddi şəkildə bağlayır. Bu isə iki ölkə arasında böhranlı əlaqələri daha nəzərə çarpan edir".

*****

Məqalədən də görünür ki, Paşinyan əslində Köçəryanla nə edəcəyini hələ dəqiqləşdirməyib. Daha doğrusu, o, Xocalı canisini məmnuniyyətlə Moskva ilə siyasi bazarlığa çıxarmaq istəyərdi ki, qarşılığında sonuncudan siyasi-iqtisadi xarakterli mühüm dividentlər qopara bilsin və hakimiyyətinin ömrünü uzatsın. Bəs bazarlıq alınacaqmı?

Bir az gözləyək.

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Rəsmi Bakı FETÖ-nü terror təşkilatı kimi tanıya bilər-Ərdoğanın çağırışı...

**Qardaş Türkiyə Azərbaycanın FETÖ qruplaşmasını terror təşkilatı kimi tanıyacağına ümid edir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən ayın sonlarında bununla bağlı dediyi fikirlər məsələni daha da aktuallaşdırıb.**





**Fərəc Quliyev:** "O çağırışa müsbət cavab verilə bilər"
**Fazil Mustafa:** "Bizdə xüsusi qərarla tanınan terror təşkilatı yoxdur"

Xatırlatma üçün bildirək ki, Ərdoğan həmin açıqlamaları Pakistanın FETÖ-nü terror təşkilatı kimi rəsmən tanıma qərarından sonra vermişdi.

**Həmin fikirlərdən sitat:** "FETÖ-nün bir terror təşkilatı olduğunu Pakistan da bildirdi. Bundan sonrakı prosesdə Pakistanda bağlanan FETÖ məktəbləri vəqfimizə təhvil veriləcək. İndi bu proses başlayır. Eyni zamanda Azərbaycanda da bəzi müsbət irəliləyişlər var. Ola bilsin ki, onların da bu məsələ ilə bağlı müjdələrini bu axşam, ya da sabah sizlərə verə bilərik".

Qeyd edək ki, indiyə qədər Azərbaycanın hansı təşkilatları terror təşkilatı kimi tanıdığı yönündə müxtəlif fikirlər səslənir. Zaman-zaman PKK-nın terror təşkilatı kimi ölkəmizdə tanınmaması ciddi qınaq, tənqid obyekti olub. Hazırda da bu belədir. Sanki rəsmi Bakı təşkilatları terror təşkilatı kimi tanımağa risk etmir. FETÖ ilə bağlı yaranan buna bənzər situasiyanın davam edəcəyi ehtimal edilir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev "Yeni Müsavat"a bunları dedi:** "Azərbaycan hər zaman Türkiyənin yanında olub. Bu ölkənin düşməni düşmənimiz, dostu da dostumuzdur. Xatırlayırsınızsa, prezidentimiz toplantıların birində bildirmişdi ki, Türkiyə tərəfi yoxdur, mən buradayam. Taleyimiz, düşmənlərimiz eynidir. O mənada Türkiyəyə qarşı hər hansı bir formada mübarizə aparılırsa, bu bütün türk dünyasına, o cümlədən Azərbaycana qarşı aparılan mübarizə sayılmalıdır. Hesab edirəm ki, Azərbaycan hökuməti tərəfindən bu məsələ müzakirə edilib, o çağırışa müsbət cavab verilə bilər. Hesab etmirəm ki, bu, qanunvericilik baxımından təsbit olunmalıdır. Amma təşəbbüs olaraq parlamentdə səsləndirilə bilər. Ehtiyac olarsa, təbii ki, bu məsələni qaldırarıq. Terror bir regiona, ölkəyə qarşı sərgilənən davranış deyil. Onun milləti, dövləti olmur. Dünyanın harasında olursa-olsun, terror təşkilatı varsa, onun törətdiyi hadisələr istənilən dövlətdə görünə bilər, o cümlədən də Azərbaycanda. Başqa bir məsələ var ki, əgər Azərbaycan dost bir ölkənin müqəddəratı ilə bağlı bir addım atırsa, bununla əlaqədar ortada müəyyən risklər varsa, Azərbaycan heç bir tərəddüd etmədən belə riskləri göz önünə ala bilər. Azərbaycanın hüquq-mühafizə orqanları o gücdədir ki, belə təşkilatlar ölkəmizə zərər edə bilməyiblər. Azərbaycanın konkret olaraq hansı təşkilatları terror təşkilatı kimi tanıması ilə bağlı siyahının olmasının şahidi deyiləm. Amma hesab edirəm ki, Azərbaycan tərəfin o iradəsi var ki, dünyanın harasında olursa-olsun, terror törədən istənilən qrupa qarşı mübarizədə əməkdaşlıq edir, istər İnterpol, istərsə də digər başqa qurumlar daxilində olsun. Açığı, deyə bilmərəm ki, rəsmən tanıma düsturu lazımdır ya yox. Amma əgər bir təşkilat terror fəaliyyəti ilə məşğul olursa, Azərbaycan o təşkilata qarşı lazımi mübarizəsini aparır. Ölkəmizin terror təşkilatlarını rəsmən terror təşkilatı kimi tanımağa risk etmədiyi yönündə düşüncələr tamamilə yanlışdır. Əgər bir terror təşkilatı varsa, Azərbaycan və ya başqa bir dövlət bu təşkilatı qanuni qurum kimi tanıyırsa, bu qəbahət sayıla bilər. Amma terror təşkilatı varsa, mütləq bu terror təşkilatını tanıma haqqında qanun qəbul olunması və rəsmən tanınması bir zərurətdir kimi beynəlxalq hüquqda belə bir tələb yoxdur. Azərbaycan qanunçuluğunda terrora, hətta onu maliyyələşdirənlərə qarşı qanunlar var. Rusiyada indiyə qədər kürd terror təşkilatlarının ofisləri bağlanmayıb, bu təşkilatın rəhbərləri ilə Bəşər Əsəd rejiminin rəhbərliyi arasında vasitəçilik olub. Belə şeylər qəbahət sayıla bilər".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa:** "PKK ilə bağlı da təqribi mövqeyimiz bu şəkildədir. Amma Xarici İşlər Nazirliyi onun giriş-çıxışı ilə əlaqədar terror təşkilatı ilə bağlı bəyanat verə və mövqeyini bildirə bilər. Bizdə daha çox bununla bağlı xüsusi qərarlar qəbul olunmur. Çünki xatırlayırsınızsa, vaxtilə PKK ilə bağlı ciddi tələb var idi. Amma bu tələb xüsusi bir parlament qərarı ilə həyata keçirilmədi. Lakin Xarici İşlər Nazirliyi terror təşkilatı kimi tanıya bilər. Həmçinin onun ölkədəki fəaliyyətinin qadağan olunması istiqamətində addımların atılması mümkündür. Əgər Türkiyə maraqlarına uyğun fəaliyyət göstərmirlərsə, hansısa bir problem varsa, bunu qaldırmaq olar. Türkiyə ilə Azərbaycan qardaş ölkədir. Çalışmalıyıq ki, Türkiyəyə qarşı hər hansı bir mübarizə varsa və qardaş ölkə bununla bağlı hər hansı bir addımlar atırsa, onun yanında olaq. Bizdə xüsusi qərarla tanınan terror təşkilatı yoxdur. Əgər beynəlxalq qurumlar tərəfindən terror təşkilatı kimi tanınırsa, Azərbaycan da müvafiq konvensiyaya uyğun şəkildə onlara münasibət sərgiləyə bilər".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# İrana casusluq edən israilli uşaq həkimi kimdir?

## 11 il azadlıqdan məhrum edilən sabiq nazir Seqev ixtisasca pediatrdır, qarşıdakı dövrdə İran-İsrail casus müharibələri daha da alovlanacaq

**İsrailin keçmiş naziri Qonen Segev İrana casusluq ittihamı ilə 11 il azadlıqdan məhrum edilib. Sabiq nazir məhkəmədə günahını etiraf edib. Bu hadisə İsrail tarixində ən böyük casusluq qalmaqallarından biridir. Çünki söhbət həm də İsrailin yüksək rütbəli məmurunun bu ölkənin "əzəli düşməni" İrana casusluğundan gedir. Məsələ ondadır ki, iki ölkə arasında gərgin vəziyyət var, hətta tərəflər bir-birini müharibə ilə hədələyir. Bu hadisə isə İsrailin imicinə ciddi zərbədir.**



Xatırladaq ki, İsrailin daxili kəşfiyyat orqanı Şin Bet keçmiş enerji və infrastruktur naziri Qonen Seqevi 2018-ci ilin mayında həbs edib. İsrail mətbuatının iddiasına görə, rəsmi qurumlar Seqevi "İsrail dövlətinə qarşı casusluq və müharibə zamanı düşmənə yardım etməkdə" ittiham edib.

Rəsmi məlumatda o da qeyd olunur ki, Seqevə qarşı rəsmi ittihamı Qüds əyaləti prokurorluğu irəli sürüb. Keçmiş nazir Afrikada həbs olunub. Belə ki, Nigeriyadan Ekvatorial Qvineyaya uçmaq istərkən yerli hüquq-mühafizə orqanları tərəfindən yaxalanıb və İsrail xüsusi xidmət əməkdaşlarına təhvil verilib.

1956-cı ildə İsraildə anadan olan Seqev Ben Qurion adına Universitetdə tibb təhsili alıb, pediatrdı. Q.Segev 1992-1996-cı illərdə Knessetin deputatı olub. 1995-ci ilin yanvarından 1996-cı ilin iyununa qədər isə o, ölkənin energetika və milli infrastruktur naziri vəzifəsində çalışıb.

Ancaq israilli sabiq nazirin və siyasət adamının "dosyesi o qədər də təmiz" deyil. Çünki bu həbsindən öncə 2005-ci ildə Seqev Hollandiyadan İsrailə 30 min narkotik həbi (ekstazi) gətirməkdə ittiham olunaraq 5 il həbs cəzası alıb. 2007-ci ilə qədər həbsdə olub və daha sonra azadlığa buraxılıb. Azadlığa çıxdıqdan sonra İsraildən kənarda, fərqli ölkələrdə yaşayan keçmiş nazirin məhz bu illərdə İran kəşfiyyatı ilə əməkdaşlıq etdiyi iddia olunur.

Mətbuatda gedən fərqli məlumatlara görə, Seqev 1995-96-cı illərdə və 2012-ci ildən sonra İran kəşfiyyatı ilə əməkdaşlıq edib. Seqevin İsrailin enerji təhlükəsizliyi və bazarı bəzi həssas məlumatları İran kəşfiyyatına ötürdüyü iddia olunur. Şin Betin yaydığı rəsmi açıqlamada Seqevin dünyanın fərqli ölkələrində İran kəşfiyyat agentləri ilə görüşdüyü, o cümlədən iki dəfə İrana səfər etdiyi iddia olunur.

2007-ci ildən Afrikanın bir sıra ölkələrində yaşayan eks-nazirin Nigeriyada yaşadığı illərdə İran kəşfiyyatı ilə əməkdaşlığa başladığı güman edilir. Sabiq nazirin məhz Afrika ölkəsində casusluğa cəlb olunmasının da öz tarixçəsi var.

Məsələ ondadır ki, İran və İsrail arasında casus müharibələri illərdir davam edir. İsrail güclü kəşfiyyat orqanları planetin bütün nöqtələrində İrana təsir etmək üçün yollar axtarır, eyni zamanda yəhudi dövləti və İsraillə bağlı olan yəhudi quruluşlarını qorumağa çalışır. Təsadüfi deyil ki, son 10 ildə İranda çoxlu sayda fizik və nüvə alimləri məhz İsrail kəşfiyyatının sui-qəsdləri nəticəsində öldürülüb. Hətta İranın nüvə mərkəzlərinə kiber hücumlar həyata keçirib.

Belə görünür ki, bu dövrdə İran da boş oturmayıb. İran kəşfiyyatı dünyanın ən zəngin, ən güclü kəşfiyyat orqanına sahib olan ölkədə sabiq dövlət rəsmilərini ələ ala bilib. Seqevin İran kəşfiyyatı ilə əməkdaşlıq etdiyi regionun özü maraq doğurur. Məsələ ondadır ki, Afrika uzun illərdir ki, İsrail və İran, daha doğrusu Livan Hizbullahının mübarizə meydanıdır. Afrikadakı zəngin mədən yataqları İsraili hər zaman cəlb edib. Mərkəzi və Cənubi Afrikanın zəngin mədən ölkələrində İsrail şirkətləri (onların bir çoxu Mossada bağlıdır - K.R.) fəaliyyət göstərir. Eyni zamanda bu ölkələrdə yəhudilərin əsas rəqibləri qədim Finikiyanın varisləri - livanlılardır. Afrikadakı livanlılar arasında həm də güclü Hizbullah kəşfiyyat şəbəkəsi var. İran kəşfiyyatı məhz livanlı hizbullahçılar vasitəsilə fəaliyyət göstərir. Seqevin Nigeriyada ələ alınmasında da məhz bu amil rol oynayıb.

Ancaq istənilən halda bu hadisə İsrailin dövlət və xüsusən də kəşfiyyat orqanları imici üçün ciddi zərbədir. Yeri gəlmişkən, bir neçə ay əvvəl Təl-Əvivin mərkəzindən İran dini liderinin mesajını paylaşan foto yayılmışdı. Görünür, bu hadisələr İsrail dövlətini hərəkətə gətirib, içəridəki "sızmalara" qarşı fəaliyyətə başlayıb. Bu həm də qarşıdakı dövrdə İran-İsrail casus müharibələrinin daha da alovlanacağını göstərir.

İsraildə siyasi xadimin və keçmiş nazirin İran kəşfiyyatının əlinə keçməsi göstərir ki, iki ölkə arasında üzdə görünməyən gizli casus müharibəsi var. Onsuz da daha əvvəl İraq, Suriya, Livan kimi ölkələrdə İran və İsrail arasında kəşfiyyat müharibələri mövcud olub. Son hadisə isə İran kəşfiyyatının güclü İsrail qarşısında o qədər də zəif olmadığını, İsrailə təhlükə yarada biləcəyini göstərir. Həmçinin tərəflərin qarşılıqlı olaraq "casus ovunu" davam etdirəcəklərini göstərir. Çünki Yaxın Şərqin bir çox münaqişə ocağı indi İran-İsrail kəşfiyyatının gizli savaş meydanıdır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

# Erməni girovluğunda olanın oğlundan "Qızıl Xaç"a etiraz

## Kürdoğlu Əsgərov: "Erməni diversant Arsen Baqdasaryan ailəsi ilə vaxtaşırı videogörüntü ilə danışa bilir, ancaq bizə o şərait yaradılmır"

**Azərbaycan dövləti hərbi əsirlərə qarşı növbəti dəfə humanist addım nümayiş etdirib. Ermənistan mediasının yaydığı xəbərə görə, ötən ilin yayında Qazax rayonu ərazisində əsir götürülmüş Ermənistan ordusunun xüsusi təyinatlısı Karen Kazaryan bayramqabağı valideynlərindən sovqat alıb.**

K.Kazaryanın sakini olduğu Berdavan kəndinin yerli kənd sovetinin sədri Smbat Muqdusyanın məlumatına görə, Yeni il və xristianların Milad bayramı münasibətilə hərbi əsrin valideynləri Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə övladlarına qida məhsulları və geyim göndəriblər. "1 yanvar günü Kazaryan ailəsində oldum. Mənə dedilər ki, bayramlardan sonra həmkəndlilərlə birlikdə hökumətə qarşı etiraz aksiyasına çıxacaqlar. Kənd camaatı iqtidardan Karenin qaytarılması üçün konkret addımlar atmağı tələb edəcəklər", - deyə kəndin rəhbəri bildirib.

Qeyd edək ki, qarşı tərəf israrla Karen Kazaryanın dinc kənd sakini olduğunu bildirsə də, adıçəkilən əsirin əynində Ermənistan ordusunun xüsusi təyinatlı qüvvələrinin forması olan və tam döyüş təchizatı ilə Azərbaycanla sərhəddəki postlardan birində çəkilmiş fotoları mövcuddur. Həmin fotolarda K.Kazaryan əlində avtomat postda növbə çəkir.



Azərbaycan tərəfi ötən ilin sonlarında Ermənistana əsir və girovları hamının-hamıya prinsipi ilə dəyişdirilməsi təklifini versə də Ermənistan hökuməti təklifə müsbət cavab verməyib. Karen Kazaryanın qohumları və həmkəndliləri isə ötən ay erməni hökumətinə qarşı etiraz aksiyası keçiriblər.

**Ermənistan silahlı qüvvələrinin 2014-cü ilin iyulunda işğal olunmuş Kəlbəcər rayonunda girov götürdüyü və hazırda Şuşa türməsində qanunsuz saxladıqları mülki kəlbəcərlilər Dilqəm Əsgərov və Şahbaz Quliyevdən isə uzun müddətdir xəbər yoxdur. Bu barədə Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov "Yeni Müsavat"ın "Beynəlxalq Qızıl Xaç Komitəsi indiyə qədər sizlərdən hər hansı bir bayram sovqatını Dilqəm Əsgərova və Şahbaz Quliyevə aparıb çatdırıbmı" sualına cavabında bildirib. O deyib ki, artıq 1 il 2 aydır Beynəlxalq Qızıl Xaç Komitəsi Dilqəm Əsgərovdan məktub gətirmir:** "Mən onlara sual verirəm ki, nəyə görə siz atamdan məktub və canlı video gətirmirsiz. Onlar isə hər dəfə eyni cavabı verirlər ki, guya atam özü məktub və yaxud da video göndərmək istəmir. Mən BQXK-yə deyirəm əgər atamın səhhəti yaxşıdırsa, atamla məni canlı skaypla danışdırsınlar. Necə olur ki, Azərbaycanda həbsdə olan erməni diversant Arsen Baqdasaryan ailəsi ilə vaxtaşırı 5 dəqiqədən artıq canlı videogörüntü ilə danışa bilir, ancaq bizə o şərait yaradılmır?! Atamdan adi bir kağız parçasını da BQXK bizə gətirmir. Yalnız bizə şifahi məlumat verirlər ki, Dilqəm Əsgərovun və Şahbazın durumu yaxşıdır. BQXK bizə sübut etsin ki, atamın səhhəti yaxşıdır və heç bir problemi yoxdur. 1 dəqiqəlik canlı videosunu gətirsinlər mənə görüm ki, atam oturur-durur, hərəkət edir, danışır. Yoxsa ki, gəlib mənə uşaq nağılları danışmasınlar ki, guya Dilqəm Əsgərov özü məktub yazmaq istəmir, məktubu özü göndərmək istəmir.

Atama bayram sovqatı göndərmək məsələsinə gəlincə, ildə iki dəfə icazə verirlər ərzaq göndərməyə. Ancaq şirniyyata, qoz-fındıq və bu tipli məhsulları göndərməyə icazə verilir. Onu da ki, bilmirik göndərdiyimiz ərzaqlar atama çatıb, yoxsa çatmayıb. BQXK-dan yalnız bir dəfə zəng edib deyirlər ki, sovqatınız çatdı. Mən isə bildirirəm ki, mənə sübut edin ki, göndərdiyim sovqat atama çatıb. Atamdan nə bir məktub, nə video təqdim etmirlər ki, orada atam göndərdiyimiz məhsulları aldığını desin".

K.Əsgərov onu da dedi ki, 5 ilə yaxındır qanunsuz girovluqda saxlanılan, vəhşicəsinə işgəncələrə məruz qalan Dilqəm Əsgərov üçün heç bir beynəlxalq təşkilat Ermənistana nə təzyiq göstərmir, nə də çağırış etmir.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Donuz qripi"nə görə Bakıda xüsusi palatalar yaradıldı, sərhəddə dezinfeksiya...

## Palatalar hazır vəziyyətə gətirilib, dərman vasitələri, tibbi ləvazimat və inventarlarla təchiz edilib; sərnişin və yük vaqonları yuyulub dezinfeksiya olunduqdan sonra "Azərbaycan Dəmir Yolları" QSC-yə təhvil verilir

**Gürcüstan paytaxtı Tiflisdə 22 yaşlı gənc qadın qrip virusundan ölüb. "Report"un Gürcüstan bürosu xəbər verir ki, o, bir həftə öncə qripin törətdiyi ensefalit diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Bir neçə gün ərzində qadın süni tənəffüs aparatına qoşulmuş vəziyyətdə müalicə olunub. Həkimlərin səylərinə baxmayaraq, gəncin həyatını xilas etmək mümkün olmayıb.**



Qadının "donuz qripi"ndən ölməsi ehtimal olunur. Ölümün dəqiq səbəbi ekspertizadan sonra müəyyən olunacaq.

Dünyasını dəyişən qadının tibb fakültəsinin tələbəsi olduğu və virusa növbədə qaldığı xəstəxanada yoluxduğu bildirilib. Onun yaş yarımlıq övladı olduğu bildirilir.

Gürcüstan Respublikasında insanlar arasında "donuz qripi" xəstəliyinin yayılması və bu xəstəliyin insanlar vasitəsilə donuzlara ötürülmə ehtimalını nəzərə alan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin Dəmir Yolunda Baytarlıq Xidməti İdarəsi ölkəmizə qonşu respublikadan daxil olan kənd təsərrüfatı yükləri daşınan vaqonlarda dezinfeksiya tədbirləri aparır. Həmçinin Rusiya, Ukrayna, Latviya, Belarus, Rumıniya, Argentina və digər ölkələrdən gətirilən vaqonlar kənd təsərrüfatına, o cümlədən baytarlığa aid yüklərdən boşaldıqdan sonra baytarlıq təyinatına əsasən dezinfeksiyaya göndərilir.

Vaqonların dezinfeksiyası Dəmir Yolunda Baytarlıq Xidməti İdarəsi tərəfindən Ələt yuma-dezinfeksiya məntəqəsində aparılır. Vaqonlar yuyulub dezinfeksiya olunduqdan sonra "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə təhvil verilir. Ələt yuma-dezinfeksiya məntəqəsi bütün lazımi dezinfeksiya maddələri ilə təmin edilib.

**Dövlət Baytarlıq Xidməti bildirir ki, ölkədə saxlanılan donuzlar arasında "donuz qripi" qeydə alınmayıb və vəziyyət sabitdir.**

"Azərbaycanda donuz qripinə yoluxma halları mövsüm ərzində qeydə alınmayıb. Mövsümi qripin və digər kəskin respirator infeksiyaların səviyyəsi son illərin orta göstəricisini aşmayıb. Lakin sərhədyanı ölkələrdə gərgin epidemioloji vəziyyətin davam etməsi ölkəmiz üçün real təhlükə kəsb etdiyindən profilaktik, müalicəvi və əksepidemik tədbirlərin həyata keçirilməsini tələb edir". "Yeni Müsavat" Səhiyyə Nazirliyinin saytına istinadən belə xəbər verir. Nazirliyin məlumatına bildirilir: "Bununla bağlı, tibb müəssisələrinə ağır kəskin respirator xəstəlik halları barədə müraciət olduğu halda, dərhal yerli gigiyena və epidemiologiya mərkəzlərinə məlumat verilir, şübhəli xəstələrdən götürülmüş nümunələr isə Respublika Taun Əleyhinə Stansiyasına çatdırılır, respublikanın şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzləri əhalinin kütləvi məskunlaşdığı yerlərdə sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə dair nəzarəti gücləndirib.

Ağır formalı qrip xəstələrinin hospitallaşdırılması üçün ET Ağciyər Xəstəlikləri İnstitutunda mənfi təzyiqli bokslar, 1 saylı Kliniki Tibbi Mərkəz və 7 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasında donuz qripi xəstəliyi ilə əlaqədar xüsusi palatalar ayrılıb, onlar hazır vəziyyətə gətirilib, dərman vasitələri, tibbi ləvazimat və inventarlarla təchiz edilib. Sərhəd keçid məntəqələrində hərarətli xəstələri aşkarlamaq üçün termoindikatorlar təchiz edilib. Respublika Taun Əleyhinə Stansiyanın laboratoriyasına tibb müəssisələrindən kəskin respirator əlamətlərlə müşahidə edilən xəstələrdən 867 nümunə daxil olmuş, "donuz" qripi aşkar olunmayıb.

Gürcüstanda insanlar arasında "donuz qripi"nin sürətlə yayılmasını nəzər alaraq ölkəmizin donuzçuluq təsərrüfatlarına mütəmadi baytarlıq baxışı, sahibkarlarla görüşlər keçirilir və təsərrüfatlarda dezinfeksiya tədbirləri aparılır.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətindən (DBX) "Trend"ə verilən məlumata görə, belə tədbirlərdən biri də Oğuz Rayon Baytarlıq İdarəsi tərəfindən Oğuz şəhər sakini Toskoynov Qeorqiyə məxsus 31 baş donuz saxlanılan təsərrüfatda icra edilib. Baytar mütəxəssisləri heyvanlara baxış keçirib, 3 aydan yuxarı 15 baş donuzda qarayara xəstəliyinə qarşı peyvənd edərək 85 kvadratmetr sahədə dezinfeksiya aparıblar. Həmçinin rayonun baytar mütəxəssisləri tərəfindən təsərrüfat sahiblərinə və sakinlərə heyvanların yemlənməsi və bəslənməsində zootexniki qaydalara əməl edilməsinə dair tövsiyələr də verilib.

Qaxda da baytarlıq idarəsi donuzlar arasında profilaktik tədbirlərə başlayıb. Rayon ərazisində 2 min başdan çox donuz qarayara xəstəliyinə qarşı peyvənd olunub və donuzların saxlandığı ərazilər dezinfeksiya edilib. Qax rayonu Gürcüstan Respublikası ilə sərhəddə yerləşdiyindən və rayonda fərdi donuz təsərrüfatları olduğundan rayon Dövlət Baytarlıq İdarəsi gücləndirilmiş iş rejiminə keçib.

**İdarə rəisi Şövkət Babayev "Report"a bildirib ki, rayonda 2 min başdan çox donuz bəslənir:** "Donuzlara əsasən milliyyətcə gürcü olan, Qax rayon sakinləri baxır. İdarə tərəfindən dezinfeksiya və mexaniki təmizlənmə işləri ilə yanaşı, donuz saxlayan fermerlər arasında maarifləndirmə işləri gücləndirilib. Əsas tapşırıq isə donuzları qapalı şəraitdə saxlamaqdır".

"Report"un bölgə müxbirinin məlumatına görə, Qax rayonunun bazarında donuz ətinin satışına rast gəlmək mümkündür. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ətin satışına nəzarət edir. Satışa çıxarılan donuz ətindən nümunə götürülür və laboratoriyaya göndərilir. Ət satışa yararlıdırsa, satışına icazə verilir.

**❑ ORXAN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

# "Sovetski"də bir ailəni məhv edən partlayışla bağlı yeni iddialar

## Dəhşətli hadisədən sonra Tolstoy küçəsində söküntü işləri sürətləndirilib; əhali köçürülür




**Yanvarın 9-da Yasamal rayonu Tolstoy küçəsi 40 ünvanında faciə ilə nəticələnən partlayış hadisəsi baş verib. Hadisə zamanı ümumi sahəsi 72 m² olan birmərtəbəli 2 otaqlı evin yanar konstruksiyaları yanıb. Əraziyə gələn yanğınsöndürənlər və xilasedicilər tərəfindən bir ailənin üzvləri olan 1956-cı il təvəllüdlü Məmmədov Aydın Əjdər oğlu, 1962-ci il təvəllüdlü Məmmədova Xuraman Cahangir qızı və 1993-cü il təvəllüdlü Məmmədova Aygün Aydın qızının meyitləri aşkar edilib.**

"Yeni Müsavat"ın əməkdaşı olaraq hadisə ilə bağlı daha detallı məlumat əldə etmək üçün partlayış baş verən evə yollandıq.

Ətrafda sökülmüş mənzillər çox olduğu üçün ərazi ilk baxışdan xarabalığı xatırladırdı. Ona görə də uçurulmuş evlərin arasından partlayış baş verən mənzili tapmağımız elə də asan olmadı. Küçələr dağılmış və palçıq içərisində, ətrafda isə texnikalar işləyir, söküntü işləri aparırdılar. Bir ailənin məhv olduğu evdə həyat çoxdan sönsə də, ətraf ərazilərdə qızğın söküntü işləri gedirdi...

Məlumat üçün öncə qeyd edək ki, Tolstoy küçəsi boyunca demək olar ki, əksər evlər sökülüb. Ümumiyyətlə, "Sovetski" ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Həmin ərəfədə bir neçə sakin etiraz etsə də sonda onlar da verilən 1500 manat kompensasiya ilə razılaşıb, evlərini tərk ediblər. 2018-ci ilin sonlarında isə "Təzə pir" məscidinin ətrafında köçürülmə işlərinə başlanılıb və bu gün də proses davam etdirilir.

Lakin ərazidə bir neçə sökülməyən mənzil də var ki, partlayışın baş verdiyi ev də onlardan biri olub. Hadisə baş verəndən sonra Yasamal Rayon İcra Hakimiyyəti məlumat yayaraq bildirdi ki, həmin ünvanda aparılan ilkin araşdırmalardan sonra buradakı hadisənin ehtiyatsızlıq ucbatından baş verdiyi məlum olub: "Çox güman ki, mənzildə qaz xətti açıq olub, bu da gecə vaxtı köhnə xətlərdən qazın sızmasına və partlayışa səbəb olub. Məsələnin araşdırılması davam edir".










**Ərazidə olduğumuz zaman söhbət etdiyimiz sakinlər isə bildirdilər ki, Tolstoy küçəsi və eləcə də söküntünün aparıldığı ətraf ərazilərdə qazın verilişində tez-tez fasilələr yaranır. Sakinlər adlarının açıqlanmasını istəməsələr də hadisənin məhz bu faktla əlaqəli olduğunu bildirdilər:** "Burada gördüyünüz kimi bir neçə evdə yaşayış var. Partlayış nəticəsində məhv olan ailə də bu ərazidə yaşamaqda davam edirdi. Bəzi ailələr var ki, onlar verilən kompensasiya ilə razılaşmırlar. Çünki evləri az kvadratlıdır və hər kvadrat üçün aldıqları 1500 manatla şəhərin mərkəzində mənzil sahibi ola bilməzlər. İnsanların da evləri, işləri mərkəzdədir və illərdir ki, burada yaşamağa öyrəşiblər. Ona görə də bir neçə ailə evini tərk etmək fikrində deyil. Söküntünü aparanlar da heç nəyə fikir verməyib, traktoru, ekskavatoru hara gəldi salırlar. Tez-tez qaz, su xətlərinə zərər verirlər. Ona görə də burada yaşayan camaatın qazı, suyu tez-tez kəsilir. Hadisə baş verən günü də qazın verilişində fasilə yaranmışdı. Ancaq gecə saatlarında qazı verdilər. Görünür, partlayış baş verən evdə qaz sönüb yenidən gəldikdən sonra bu faciə yaşanıb. Bütün hallarda iş gedirsə, qazı kəsəndə, verəndə camaata xəbər etməlidirlər. Kefləri istəyən kimi hərəkət edirlər".

Partlayış baş verdikdən sonra ev necə varsa, elə də qalıb. Partlayış o qədər güclü olub ki, evin tavanını, pəncərələrini qırıb. Eyni zamanda yaxınlıqda yerləşən mənzilin də pəncərə şüşələri sınıb. Öyrəndik ki, partlayış baş verən evin arxasındakı mənzildə yaşayanlara hadisə günü kompensasiya verilib. Onlar artıq evlərini tərk etməyə hazırlaşırdılar. Ev sahibi miqdarı açıqlamasa da, bildirdi ki, verilən kompensasiya ilə razıdır. Qonşu bildirdi ki, partlayışın qurbanı olan ailə heç vaxt mənzilini uzun müddətlik tərk etməyib. Hadisə baş verən günü də ailə üzvlərinin əksəriyyəti evdə olub. Ailənin iki qız övladı varmış. Onlardan böyük qız evdə olmadığı üçün partlayışdan sağ qurtulan yeganə ailə üzvü də odur. Qonşular yalnız partlayış baş verdikdən sonra əraziyə gəliblər. Partlayış sonrası yanğın baş verdiyi üçün içəri tüstüdən girməyə çətinlik çəkiblər. Xilasedicilərin köməyi ilə içəridən ailə üzvlərindən biri-Aygün Məmmədova çıxarılsa da, onu boğulmadan xilas etmək mümkün olmayıb...

Partlayış dalğasının təsirindən evin çöl divarı həyətdə dayanmış "Tofaş" markalı avtomobilin üzərinə aşıb. Həmin avtomobil də yararsız vəziyyətə düşüb.

Onu da qeyd edək ki, faciəvi partlayışdan sonra hadisə yerinin yaxınlığında yerləşən Bakı Avropa Liseyinin də kommunal xətlərində problem yaranıb. Bu barədə "Yeni Müsavat"a valideynlər məlumat veriblər. Valideynlər bildiriblər ki, həmin ərazidə qazın verilişində tez-tez fasilələr yarandığı üçün bu kimi hadisələr baş verir. Onlar da partlayışa səbəb kimi məhz bu faktoru göstəriblər. **Liseyin direktoru Zülfiyyə Veysova "Yeni Müsavat"a bildirib ki, liseyin kommunal xətlərində yaranmış qısa müddətlik problem öz həllini tapıb:** "Təhsil müəssisəsi fəaliyyətini əvvəlki qaydada davam etdirir".

Hazırda isə həmin ərazinin qaz təchizatı dayandırılıb. Bu barədə "Yeni Müsavat"a "Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev məlumat verib. O bildirib ki, ərazidəki hadisə ilə bağlı mənzillərə verilən qaz təchizatı dayandırılsa da, Bakı Avropa Liseyinin təbii qazla təminatında problem yoxdur.

Öyrəndik ki, hazırda Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri hadisə yerində araşdırma aparırlar. Partlayışın dəqiq səbəbi araşdırma başa çatdıqdan sonra məlum olacaq.

**❑ Əli RAİS, "Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Azərbaycan vətəndaşlığı üçün şərtlər: 5 il yaşama, dövlət dili...

## Əlövsət Allahverdiyev: "Xarici vətəndaşın ölkəmiz üçün elə bir addımı ola bilər ki, vətəndaşlıq ona bağışlana bilər"

**Tez-tez sual olunan məsələlərdən biri də Azərbaycan vətəndaşlığı almağın şərtləri ilə bağlıdır. Məlum olduğu kimi, Azərbaycanda vətəndaşlıq daha ciddi şərtlərlə verilir. Əgər hansısa dövlətdə, sadəcə, ciddi məbləğdə investisiya yatırmaqla və ya həmin ölkə vətəndaşı ilə ailə qurmaqla vətəndaşlıq hüququ əldə etmək mümkündürsə, Azərbaycan dövləti bu məsələdə daha mühafizəkar mövqedədir. "Azərbaycan vətəndaşlığını almaq üçün hansı tələblər qoyulub" sualını hüquqşünas Əlövsət Allahverdiyev "Yeni Müsavat"a açıqlamasında səsləndirib: "Bu məsələ "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunla, həm də Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Xarici vətəndaşların Azərbaycan Respublikasında vətəndaşlıq alması üçün müəyyən şərtlər var. Bu şəxs Azərbaycan Respublikasında fasiləsiz olaraq 5 il yaşamalıdır, eyni zamanda Azərbaycan dövlət dilini bilməlidir. Bununla bərabər, Azərbaycan Respublikasından qanunla müəyyən olunmuş müddətdə kənara çıxma qaydalarını pozmamalı, kənara çıxacağı təqdirdə məlumat verməlidir. Həmçinin bu müddət 3 ildən artıq olmamalıdır".**

Ə.Allahverdiyevin sözlərinə görə, vətəndaşlıq həmçinin dövlət başçısı tərəfindən bağışlana bilər: "Məsələn, xarici vətəndaşın ölkəmiz üçün, dövlət maraqlarına, milli maraqlara elə bir addımı ola bilər ki, vətəndaşlıq ona bağışlana bilər. Yaponiyanın Azərbaycanda keçmiş səfiri var idi, məktəblərin tikilməsi üçün fədakarlıq göstərmişdi. O zaman prezident ona vətəndaşlıq bağışladı. Futbolçuların xidmətləri ilə bağlı da onlara vətəndaşlığın bağışlanması reallaşdı. Bu cür güzəştlər mümkündür.



**Xaricdə yaşayan azərbaycanlılara, xüsusilə də Gürcüstan azərbaycanlılarına daha asan şərtlərlə vətəndaşlıq hüququnun verilməsi ilə bağlı məsələyə gəlincə, hüquqşünas bildirdi ki, qanunda belə bir məqam nəzərdə tutulmayıb:** "Qanunda belə bir şey yoxdur. Bu tələb haqlı da deyil. Azərbaycan qanunvericiliyi ikili vətəndaşlığı qəbul etmir. Soydaşımız olsa belə, başqa bir ölkənin vətəndaşlığını daşıyırsa, Azərbaycana gələn zaman onunla xarici vətəndaş kimi rəftar olunmalıdır. Elə ölkə var ki, oraya gedib yerli bir xanımla nikaha girdikdə vətəndaşlıq verilir. Bizdə belə bir qayda da yoxdur. Gürcüstan azərbaycanlıları da oranın vətəndaşı olduğu üçün burada xarici vətəndaş kimi qəbul edilirlər".

**Hüquqşünas Əkrəm Həsənov da vurğuladı ki, vətəndaşlığın verilməsi ilə bağlı milliyyət məsələsi əsas götürülmür:** "Doğrudur, dil bilmək məsələsi burada üstünlükdür. Ancaq azərbaycanlı sözünün anlamı Azərbaycanda yaşayan və bu ölkənin vətəndaşı olanlara deyilir. Buraya türk də, talış da, rus da, ləzgi də daxildir. Hətta Azərbaycanda yaşayan və Azərbaycan vətəndaşı olan ermənilər də var ki, onlar da azərbaycanlı sayılır. Əgər milliyyətə görə vətəndaşlığın verilməsi şərtləri yumşaldılsa, o zaman İran İslam Respublikasında bizdən daha çox azərbaycanlı yaşayır. O zaman onlar da iddia edə bilərlər. Bu real deyil".

Azərbaycanda yaşamaq icazəsinin verilməsi üçün də müəyyən şərtlər var. İlk olaraq qeyd edək ki, ölkə ərazisində təhsil alanlara əyani təhsil üçün universitet tərəfindən müvəqqəti yaşayış vəsiqəsi verilir, ancaq sonradan vətəndaşlıq almaq üçün bu vəsiqələr rol oynamır. Yəni təhsil müddəti bitdikdən sonra həmin xarici vətəndaş burada yaşamaq hüququnu itirmiş olur və vətəndaşlıq ala bilmək üçün yenidən çətin şərtlərlə üz-üzə qalır. Yaşama icazəsinin alınması üçün tələb olunan şərtlər Miqrasiya Məcəlləsində öz əksini tapıb. Belə ki, şəxs Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda və ya ölkə iqtisadiyyatına azı 500 min manat məbləğində investisiya qoyduqda, eləcə də respublika ərazisində azı 100 min manat dəyərində daşınmaz əmlakı və ya ölkə banklarında həmin məbləğdə pul vəsaiti olduqda, iqtisadiyyat, sənaye, müdafiə, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda, ona yaşamaq üçün icazə verilə bilər. Həmçinin ölkə ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda, Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün bu məcəllə ilə müəyyən edilmiş qaydada iş icazəsi aldıqda, respublikanın ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil aldıqda, dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda, o cümlədən Azərbaycan vətəndaşı ilə rəsmi nikahda olduqda yaşamaq hüququ əldə etmək mümkündür. Qanunvericilikdə nəzərdə tutulan müddətdə ölkədə yaşadıqdan sonra müəyyən sənədləri təqdim etməklə dövlət başçısına ərizə yazaraq vətəndaşlıq üçün müraciət edə bilər.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Xaricdən gətirilən ərzaq məhsulları qıtlaşıb-müəmma

## Qonşu ölkədə istehsalı kəskin azaldan səbəb həqiqətən bayram tətilidir?




**Son günlər ölkəyə idxal olunan bir sıra ərzaq məhsulları çeşidləri ticarət şəbəkələrindən yoxa çıxıb. Ölkə mətbuatının yazdığına görə, xüsusilə Bakının bəzi supermarket şəbəkələrində idxal ərzaq məhsullarının çeşidi kəskin azalıb. Azalmanın əsasən xaricdən, daha çox Rusiya, Ukrayna və digər ölkələrdən idxal olunan məhsullarda müşahidə olunduğu bildirilir. Qeyd olunur ki, xüsusən çay, qənnadı məhsulları, sosiska və kolbasa məmulatlarında bir neçə ay əvvələ qədər müşahidə olunan çeşid bolluğu yoxdur.**

Əmtəələrin qıtlaşmasını alıcılar da təsdiqləyirlər. Onların sözlərinə görə, uzun müddət aldıqları idxal markalarını yerli mallar əvəzləyir. Məsələn, qənnadı məmulatları arasında Rusiya istehsalı olan şokoladlar azalıb. Ukraynanın "Roshen" firmasına məxsus konfetlərin cəmi bir neçə çeşidi var.

**Azərbaycana ərzaq məhsullarının ən böyük idxalçılarından biri olan "Veysəloğlu" Şirkətlər Qrupunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri İlham Məmmədzadənin "Yeni Müsavat"a verdiyi məlumata görə, onların idxal etdiyi ərzaq məhsulları çeşidlərində hər hansı dəyişiklik yoxdur:** "Bizim idxal etdiyimiz məhsul və ya satışda heç bir dəyişiklik yoxdur. Normal şəkildə həmişəki qaydada idxal və dağıtım həyata keçirilir".

Satış şəbəkələrindən aldığımız məlumata görə, həqiqətən əsasən Rusiyadan gətirilən bir sıra məhsulların idxalı demək olar ki, dayanıb. Qeyd edək ki, Rusiyadan ölkəmizə ərzaq məhsullarından əsasən balıq və balıq məhsulları, süd və süd məhsulları, qənnadı məmulatları, çay idxal olunur. Maraqlıdır ki, nə Rusiya, nə də Azərbaycanın gömrük orqanlarından idxal-ixraca heç bir maneə yoxdur. Yəni məhsulların ixracı və idxalına hər hansı məhdudiyyət tətbiq olunmur.

Satış şəbəkələrindən "Yeni Müsavat"a verilən məlumata görə, problem istehsalçılarda yaranıb. Belə ki, istehsalçılarda məhsul istehsalında son bir ayda ciddi azalma baş verib. Rusiya tərəfi bunu bayram tətilləri ilə izah edir. Bildirilir ki, bayram tətilləri uzunmüddətli olduğu üçün istehsalda ciddi azalma baş verib. Satış şəbəkələrindən verilən məlumata görə, istehsalçılar yanvarın 15-dən vəziyyətin düzələcəyini, məhsul ixracının bərpa olunacağını bildiriblər.

Ukraynadan idxalda isə hər hansı problem yoxdur. "Roshen" firmasının məhsullarına gəlincə, onların idxalı ötən ilin ortalarından azalıb. Bu da həmin firmanın Rusiyadakı istehsal müəssisəsinin fəaliyyətini dayandırması, Ukraynada isə istehsalın kəskin azalması ilə bağlıdır.

Yeri gəlmişkən, Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2018-ci ilin yanvar-noyabrında Azərbaycana 1 milyard 226 milyon manatlıq yeyinti məhsulları idxal olunub.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Yeni Müsavat
N 7 (7177) 11 yanvar 2019

# Silahımız düşməni məhv edəcək qədər çoxdur-ekspert

## **Polkovnik Şair Ramaldanov:** "Ali Baş Komandan demişdi ki, Azərbaycan və Ermənistanı təkbətək qoysalar, ordumuz qısa bir zamanda işğalçı ordunu darmadağın edər"

**Azərbaycan Silahlı Qüvvələrinin ən müasir silahlarla, hərbi texnika ilə təchiz olunması dövlətimizin prioritetləri sırasındadır. Havadarlarına arxalanan Ermənistanın işğalı altında olan ərazilərimizin azadlığı təbii ki, ordumuzun düşməndən dəfələrlə üstün olmasından keçir və bütün resurslar bu hədəfə yönəldilib.**



Silahlı Qüvvələrimizin silah-sursatla təchiz olunması istiqamətində İsraillə, Türkiyə, Rusiya, Pakistanla sıx əməkdaşlıq edilir. Son zamanlar isə bu sıraya ölkəmizin digər müttəfiqi Belarus da əlavə olunub. Məlumata görə, son illər Belarus şirkətləri Azərbaycan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının silahlanmasında yer alan "S-125 Peçora" və "Osa" zenit raket komplekslərinin modernləşdirilməsi proqramına qatılıblar. BMT-nin Adi Silahlar Registrinə təqdim edilən hesabata əsasən, Azərbaycan 2005-2017-ci illərdə Belarusdan 153 ədəd T-72 tankı, 60 ədəd BTR-70, 158 ədəd haubitsa əldə edib. Bu haubitsalardan 12-si 203 mm-lik "Pion" (atış məsafəsi 50 kilometr) özeyeriyən artilleriya sistemi, 26-sı 2017-ci ildə alınmış "Giatsin-B", 120 ədədi isə D-30-dur. Bunlarla yanaşı, Azərbaycan adıçəkilən ölkədən 11 ədəd "Su-25" döyüş təyyarəsi əldə edib. Bu təyyarələr modernləşdirilib.

Qeyri-rəsmi informasiyaya görə, on illik əməkdaşlıq ərzində Minsk Bakıya təxminən 500 milyon dollarlıq silahlar, hərbi təyinatlı texnika və avadanlıq satıb. Son zamanlar Belarus Ermənistanı Azərbaycana satdığı "Polonez" raket kompleksləri ilə şok vəziyyətinə saldı. "Polonez"in üzərində döyüşə hazır 8 raket var. Kompleks düşmənin açıq sahədə, sığınacaqlarda, zirehli və zirehsiz texnika, artilleriya, raket sistemləri və hava hücumundan müdafiə vasitələrinin məhv edilməsi üçün nəzərdə tutulub. Bu isə Ermənistanın "İsgəndər" təhdidlərinə tutarlı cavabdır.

Üstəlik, Azərbaycan 2018-ci ildə Türkiyə istehsalı olan müdafiə və aviasiya məhsullarının alışını 85,7% artırıb. Məlumata görə, əgər 2017-ci ildə Azərbaycanın Türkiyədən aldığı müdafiə və aviasiya məhsullarının qiyməti 34,143 milyon dollar təşkil etmişdisə, 2018-ci ildə bu göstərici 63 milyon 409 min dollara bərabər olub.

Amma sadə respondentlərin daha çox ünvanladıqları suallardan biri budur: Azərbaycan bu qədər müasir silah-sursat, hərbi texnika alırsa, bəs onlardan düşmənə qarşı nə zaman istifadə olunacaq? Əslində haqlı yanaşmadır. Bəli, düşmənin mövqeyi bəllidir. Ermənistan sülh yolu ilə yola gəlmək istəmir. Əksər ekspertlər də deyir ki, ikinci aprel zərbəsi lazımdır ki, düşmən konstruktiv mövqe sərgiləsin. Elə isə yolumuzu kəsən nədir?

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, alınan, yaxud istehsal olunan silahların dərhal tətbiq olunması mütləq deyil:** "Çünki silahlı qüvvələr formalaşır, inkişaf edir, yeni silahlar, yeni imkanlar üzə çıxır. Bununla əlaqədar qarşıya qoyulan tapşırıqlar çərçivəsində silahlı qüvvələr formalaşır. Bu, təbii, normal bir prosesdir, hər bir dövlət öz silahlı qüvvələrini müasir silahlarla silahlandırmağa çalışır". **O ki qaldı Azərbaycan Silahlı Qüvvələrinə, Ş.Ramaldanov dedi ki, burada əsas məqsəd Azərbaycan Respublikası Silahlı Qüvvələrinin üzərinə düşən vəzifələri yerinə yetirməkdir:** "Həm də təbii ki, qarşımızda böyük bir vəzifə durur və Silahlı Qüvvələrimiz də buna hazırlaşır. Söhbət işğal altındakı Qarabağ torpaqlarının azad olunmasından gedir. Bununla əlaqədar Azərbaycan Silahlı Qüvvələri, əlbəttə, silahlanır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı öz çıxışında demişdi ki, Azərbaycan və Ermənistanı təkbətək qoysalar, Azərbaycan Silahlı Qüvvələri qısa bir zamanda işğalçı ordunu darmadağın edərək ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Bu da təbii ki, Azərbaycanın bugünkü silahlanması, bugünkü potensialı ilə bağlıdır. Azərbaycan Silahlı Qüvvələri bu gün o resursa malikdir ki, işğal olunmuş ərazilərin azad edilməsi funksiyasını yerinə yetirsin. Ancaq Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı var və silahlı qüvvələrimiz onun əmrini yerinə yetirir. Ona görə də Azərbaycan Silahlı Qüvvələri bu gün daim gündəlik fəaliyyətində özünün döyüş hazırlığını yüksəldir, mütəxəssislərin peşəkarlığını artırır və bu fəaliyyətini davam etdirir".

**Polkovnik Ramaldanov Azərbaycan ordusunun gücünün beynəlxalq miqyasda təsdiq olunmasına da diqqət çəkdi:** "Beynəlxalq qurumların reytinqinə görə, Azərbaycan ordusu dünyanın 50 güclü ordusunun sırasında özünə yer alıb. Bu qiyməti biz verməmişik, ən nüfuzlu beynəlxalq qurumlar verib. Bu gün Azərbaycanın hərbi mütəxəssisləri istər Gürcüstan və Türkiyə ilə birgə təlimlərdə, istər hansısa yarışlarda - Rusiyada tankçıların, Qazaxıstanda topçuların, ya da Türkiyədə xüsusi təyinatlıların yarışlarında, istərsə də Əfqanıstanda sülhməramlı qüvvələrin öz tapşırıqlarını yerinə yetirməsi - Azərbaycan Silahlı Qüvvələri öz inkişafı və peşəkarlığı ilə seçilir".

**Azərbaycan ordusu üçün alınan silah-sursatdan, hərbi texnikadan nə zaman düşmənə qarşı istifadə olunacağına, yaxud işğalçılara qarşı əməliyyatlara başlanacağına gəldikdə, Ş.Ramaldanov aşağıdakıları söylədi:** "Bilirsiniz ki, bununla əlaqədar Azərbaycan prezidenti hələlik Qarabağ məsələsinin sülh yolu ilə həll imkanlarının tükənmədiyini deyib. Qeyd edib ki, əgər sülh yolu nəticə verməsə, biz güc yolu ilə öz torpaqlarımızı azad edəcəyik. Danışıqlar bərpa olunub və bu istiqamətdə artıq müsbət addımlar da atılmaqdadır. Qarşı tərəfdə, Paşinyan hökumətində də sülh yolu ilə tənzimləmə istiqamətində müəyyən meyllər hiss olunur. Azərbaycan Silahlı Qüvvələri əmr alarsa, tapşırığı yerinə yetirməyə hazırdır. Azərbaycan ordusundakı müasir silahlar və döyüş hazırlığı buna tam imkan verir".

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**



# Diaspora liderinin böyük ayıbı

## Vaqif Mustafayev erməni xalqını Milad bayramı münasibətilə təbrik edib

**Azərbaycanın Rusiyanın Rostov-Don şəhərindəki diasporunun rəhbəri Vaqif Mustafayev erməni xalqını Milad bayram münasibətilə təbrik edib, özü də bütün azərbaycanlıların adından (?!) Bu barədə virtualaz.org saytı xəbər yayıb.**

Xəbərdə deyilir: "V.Mustafayev ötən ilin oktyabrında da Ermənistana belə bir təbrik yollamış və erməni xalqını müstəqilliklərinin 25 illiyi münasibətilə təbrik etmişdi. Yenə də "bütün azərbaycanlılarin" adından. İki il əvvəl isə yenə də o, Rusiyanın bu regionunun erməniləri tərəfindən təşkil edilmiş tədbirdə iştirak edərək, nitq söyləmişdi. O zaman mətbuat yazırdı ki, "Vaqif Mustafayevin təbriki ermənilərə xüsusilə xoş təsir bağışlamışdı. Vaqif Mustafayev Azərbaycan ictimaiyyətinin diqqətini ilk dəfə hələ 2015-ci ildə özünə cəlb etmişdi. O vaxt diaspor rəhbəri Rostov hakimiyyətinin icazəsi olmadan erməni separatçılarının təşkil etdiyi tədbirdə iştirak etmiş və səhnədə "DQR bayrağı" adlanan əski parçasını dalğalandıran qarabağlı rəqqasların çıxışını ayaq üstə alqışlamışdı".

# "Savaşımız Qarabağdan başlayacaq"

## **Deputat:** "Qarabağla bağlı "Paşinyan nə düşünür?" sualı bizim üçün qətiyyən aktual deyil"

**"Paşinyanın meydan hərəkatından siyasət kabinetlərinə köçürülən hakimiyyət marafonunun ilk kilometrləri hər nə qədər uduşlu görünsə də, sonrakı mərhələlərdə gərginlikləri rahat proqnozlaşdırmaq mümkündür".**

**Deputat, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa** bu fikirləri "Yeni Müsavat"a Qarabağ ətrafındakı vəziyyəti, həmçinin işğalçı Ermənistandakı son durumu şərh edərkən söylədi. Onun sözlərinə görə, Ermənistan hakimiyyətini yaxşı perspektiv gözləmir: "İlk öncə Dağlıq Qarabağ separatçıları ilə münasibətin təhlükəli məcraya yönəlməsi ehtimalı böyükdür. İkincisi, sosial-iqtisadi problemlər üçün Ermənistanın regiona açıq bir dövlətə çevrilməsinin yaxın zamanlarda imkan xaricində olması gerçəyi var. Paşinyan hakimiyyəti, əlbəttə, ABŞ və Rusiyanın müştərək təcrübə layihəsidir, ancaq hər iki dövlətin melodiyasına uyğun rəqs edə bilməsinin nə dərəcədə riskli olduğu unudulmamalıdır. Bu hakimiyyət yeni bir sosial narazılıq dalğasının boy göstərməsinə qədər duruş gətirə biləcək".

F.Mustafa hesab edir ki, üstəlik, Qarabağ məsələsində də hansısa bizim xeyrimizə sayıla biləcək sürpriz addımlara gedəcəyi gözlənilmir: "Qarabağla bağlı "Paşinyan nə düşünür?" sualı bizim üçün qətiyyən aktual deyil, tamamilə "Bizlər nə etməliyik?" sualına cavab axtarmağa çalışmalıyıq".

**Deputat Azərbaycan ordusunun Naxçıvan istiqamətindən irəliləməsinin düşməndə yaratdığı təşvişlə bağlı da fikirlərini bölüşdü. Yeri gəlmişkən, bəzi müşahidəçilər son ayların gəlişmələrinə nəzər yetirməklə budəfəki savaşın Naxçıvan istiqamətindən başlaya biləcəyini proqnozlaşdırırlar. F.Mustafa isə bu məsələdə daha korrekt olmağı vacib sayır:** "Azərbaycan ordusunun hər bir uğuru bizi sevindirir və ordumuz üçün hər bir vətəndaşımız imkanı çatan dəstəyi verməlidir. Naxçıvan istiqamətində də bir neçə uğurlu əməliyyatın keçirilməsi real nəticələr verdi və düşməni də xəyallar aləmindən yeni reallıqlarla hesablaşmağa məcbur etdi. Lakin "savaşın Naxçıvandan başlaması" ifadəsi yanlış siyasi düşüncə ortaya qoya bilər. Bizim siyasi tezisimiz budur ki, hansısa ölkənin ərazisinə hücum etmək niyyətimiz yoxdur, sadəcə, işğal olunmuş ərzilərimizi azad etmək üçün hərbi əməliyyatlar keçirməyə hazırıq və bunu gerçəkləşdirməyə çalışacağıq. Ona görə də bütün hallarda savaşımız birbaşa işğal olunmuş Qarabağdan başlayacaq!"

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 7 (7177) 11 yanvar 2019

# Arvadını döyənləri həbs cəzası gözləyir

## Qadınlar 10 il əvvəlki kimi deyil, indi polisə şikayət edir, ərlərini həbs etdirirlər



**Bu günlərdə mediada əri tərəfindən döyülən qadının fotoları yayılmışdı. Şəmkirdə qadın əri tərəfindən döyülmüş və bu xəbər "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi tərəfindən mediaya yayılmışdı. Rayonun Qaracəmilli kəndində Gülnarə Kazımova adlı qadın həyat yoldaşı Ataşov Zeynal Ramiz oğlu tərəfindən vəhşicəsinə döyülərək tanınmaz hala salınmışdı. Bildirilmişdi ki, qadın yatdığı zaman əri içki şüşəsi ilə onun başına vurub və ağır xəsarətlər yetirib. Hazırda polis qadının həyat yoldaşını saxlayıb. Onun spirtli içki aludəçisi olduğu bildirilir.**

Qeyd edək ki, İctimai Birlikdən Gülnarə Kazımovaya yardım təklif edilib. Amma bu, Azərbaycanda nə ilk belə hadisədir, nə də son olacağa bənzəyir. Bir çox adamlar bunu mentalitetlə əlaqələndirirlər. Yəni bizimki kimi cəmiyyətlərdə qadının daim susqun, müti, hər şeylə razılaşan obrazdan kənara çıxması sonda zorakılıq qurbanına çevrilməsinə səbəb olur. Bəs cəza hansı formada verilir? Ümumiyyətlə, verilirmi? Qadınlar onları döyən ərlərindən şikayət edirlərmi?

### Mehriban Zeynalova: "Qadınlar indi susmur, onları döyən ərlərindən şikayət edirlər..."

**"Təmiz Dünya" İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qadınlar artıq onlara qarşı fiziki təzyiq göstərən həyat yoldaşları ilə bağlı məhkəməyə şikayət edirlər. Onun sözlərinə görə, on il öncəki ilə müqayisədə indi bu cür müraciətlərin sayı çoxalıb. Müsahibimiz həyat yoldaşını döyən kişilərin cəzalandırıldığını, həbsə atıldığını dedi: "Təbii ki, cəza verilən xəsarətin dərəcəsindən asılı olur. Qadın vaxtında müraciət edəndə, ekspertiza keçirilir və xəsarətin dərəcəsi müəyyənləşdirilərək, kişinin cəzalandırılması üçün zəmin yaranır. Artıq qadınlar bu sayaq müraciətlər üçün çəkinmirlər. Bunu polis bölmələrinə edilən qadın müraciətlərinin artan sayından da görmək olur. Amma əgər döyülən qadın həmin evdə qalırsa, valideynlərindən də dəstək almırsa, o zaman bu hallar təkrarlanır, proses də ləngiyir. Xəsarətin müddəti keçəndə isə onu sübut etmək mümkün olmur".

**Müsahibimiz ailədaxili şiddətin səbəbləri barədə də danışdı. Dedi ki, cəmiyyətdə stereotiplər var. Belə ki, zorakılıq müxtəlif formalarda həyata keçirilir. Bunlardan birincisi qadının ailədə müti olması, eşitdiyi sözləri bütün formalarda qəbul etməsi ilə bağlı daşlaşmış fikirdir:** "Qadın nəyəsə etiraz edəndə, ya da cavab verəndə döyülür. Bundan başqa, ailəyə müdaxilələr də olur. İğtişaş yaranında onu soyutmaq, aradan qaldırmaq əvəzinə, qızışdırıcı hallar özünü göstərir. Bir də var qazanılmış asılılığın yaratdığı zorakılıq elementləri. Bu, narkotik, alkoqoldan asılı insanların evdə yaratdığı terrordur və zorakılığın başqa formasıdır. Buna zorakılığın "səbəbsiz forması" deyilir. Kişi deyir ki, "narkotikdən asılıyam, kefim istəyir, döyürəm". Ya da hesab edək ki, ailədə ciddi gərginlik var. O ailə mühitində kimsə dəstəkverici tərəf olanda psixoloji zorakılıq fiziki zorakılığa keçir".

**M.Zeynalova xatırlatdı ki, bəzən qarşılıqlı zorakılıq halları baş verir. Müsahibimizin sözlərinə görə, bu günlərdə "Ər-arvad bir-birini bıçaqladı" başlıqlı bir xəbər yayılmışdı. Hüquq müdafiəçisi hesab edir ki, burada tərəflər arasında heç bir iştirakçı olmayıb və heç bir tərəf gərginliyi azaltmağa cəhd göstərməyib:** "Halbuki ilkin mərhələdə mütəxəssis müdaxiləsi olsa, bu hadisə baş verməzdi. Mən hesab edirəm ki, gərginlik olan ailədə tərəflərin bir müddət bir-birindən aralanması çıxış yolu ola bilər. Düşünmə dövrü üçün yer seçilməlidir ki, bu, ata-ananın yanı olmamalıdır. Mühiti dəyişmə, mütəxəssis yanında olmaq bu çıxış yollarından biridir. Gərginlik yüksək həddə olanda, tərəflərdən biri od, digəri su olmalıdır. İkisi də od olur, gərginliyi artırır. Ümumiyyətlə, ailə münaqişələrində tərəflərin ikisi də mütləq şəkildə iştirakçıdır. Çünki hadisələrə fərqli bucaqdan yaxınlaşma meylləri görünmür".

**QHT sədrinin sözlərinə görə, qadınlar əsasən ərləri tərəfindən döyülür. Amma qardaşları, ataları, hətta anaları tərəfindən fiziki şiddətə məruz qalanlar da var.**

"Adətən baş nahiyəsinə, göz altına, dodaq üstünə, başın yan hissələrinə vururlar. Buna əsasən döyülən qadınlar zəif eşidir", o deyir. Müsahibimiz deyir ki, bir çox qadınlarda döyülmənin nəticəsi olaraq sinir sistemi, hipertoniya, ürək-damar, mədə xəstəlikləri ortaya çıxır.

O, qadınların öz hüquqlarını bilməməsini əsas problemlərdən biri kimi görür və deyir ki, fiziki zorakılığa məruz qalmış qadınlar təhlükə və təhdid anında dərhal 102 qaynar xəttinə zəng vurmalıdırlar.

### Dünyada nə qədər qadın döyülmədən əziyyət çəkir?

Məlumata görə, qadınların təxminən 70 faizi məişət zorakılığından əziyyət çəkir. BMT-nin məlumatına görə, dünyada qadınların və qızların 35 faizi ömründə ən azı bir dəfə fiziki və ya cinsi zorakılığın bu və ya digər formasına məruz qalır. Avropalı qadınların 15 faizə qədəri gündəlik məişət zorakılığının qurbanı olur. Bəzi kişilər qadına əl qaldırarkən insan haqlarını pozduqları barədə düşünmürlər.

İctimai Səhiyyə və İslahatlar Mərkəzinin açıqlamasına görə, statistika qadınların 60 faizinin öz ailələri tərəfindən zorakılığa məruz qaldığını, onların sağlamlıqlarına xəsər yetirildiyini göstərir, əksər hallarda isə zorakılığın baş verməsi faktı gizli saxlanılır. Mərkəzin apardığı sorğunun nəticələrinə görə, dünyada 42 faiz qadın cinsi və fiziki zorakılığa məruz qalaraq zədə və travma alır:

Avropa Birliyinin Qadına və Ailədaxili Şiddətə qarşı Mübarizə mütəxəssisləri qrupu (GREVIO) açıqlayıb ki, Şərq ölkələrində qadınların 25 faizindən çoxu 18 yaşından öncə tez və ya zorla evləndirilir. Bu faiz bölgələrdə 32 faizə qədər artır. GREVİO mütəxəssisləri qadınları şiddətdən qorumaq üçün qəbul edilən tədbirlərlə bağlı təkmilləşdirməni lazımlı sayır.

Qadınların bu sayaq şiddətə məruz qalma hallarında bunu polisə bildirməmələrinin səbəbi isə aşağıdakılardır: damğalanma qorxusu, iqtisadi asılılıq, hüququnu bilməməsi, hüquq-mühafizə orqanlarına inamsızlıq, itirəcəklərinin qorxusu. Məhz bu sayaq faktorlara görə təcavüz və digər cinsi şiddət qurbanları olayla bağlı şikayət etmirlər.

### Döyəni bu cəzalar gözləyir

Ailə daxilində baş verən fiziki şiddət Azərbaycan Respublikası Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir. Cinayət Məcəlləsində bu hallar qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma, qəsdən sağlamlığa yüngül zərər vurma, əzab vermə maddələri ilə qeyd olunub.

Qəsdən sağlamlığa ağır zərər vurma üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qəsdən sağlamlığa az ağır zərər vurma iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Qəsdən sağlamlığa yüngül zərər vurma beş yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Əzab vermə iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə isə iki yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

İnzibati Xətalar Məcəlləsinə görə isə döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə - beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

Azərbaycanın Cinayət Məcəlləsində cinsindən asılı olmayaraq döyülməyə görə 200 manata kimi cərimə, 248 saat və ya 1 ilə kimi ictimai-islah işləri, yaxud 6 aya qədər həbs cəzası nəzərdə tutulur. İşgəncə verənlər isə 3-7 il həbs cəzası ala bilər.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun 2010-cu ildə qəbul edilib və qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsinə yönəldilib.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

**Elan**

**Bakı şəhəri, Suraxanı rayonu, "Yeni Günəşli" qəsəbəsi, "V" massivi, Bina 14 A, mənzil 12-yə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Əliyeva Naibə Hidayət qızının adına verilən çıxarış kağızı ("kupça") itdiyi üçün etibarsız sayılır.**

***

**Mürsəlov Elman Mürsəl oğlunun adına keçmiş DTİ və MHQİ-si tərəfindən verilmiş 27 a nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**




# İnsanlara xidmət etməyən alimin dəyəri yoxdur

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! İslamın nəzərində insanın tam kamil surətdə inkişafı üçün iki məsələ çox mühümdür. Onlardan birincisi maariflənmə, elm, bilik, agahlıqdır. İkincisi - məsuliyyətdir.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



Dünyaya nəzər salsaq, bugünkü mütərəqqi dünyada özünə yer tapmış universal fikir bundan ibarətdir ki, bəşər elmlənərək, maariflənərək və bununla bərabər məsuliyyətə malik olsa - inkişafa doğru gedəcək. Əksinə, geriyə getmənin səbəbi insanların nadanlığından, cahilliyindən və ya məsuliyyətsizliyindən olur.

## Bilik əhlinin məqamı

Mübarək İslam dini 14 əsr bundan öncə bəşərə bu həqiqəti elan etmiş, insanlığa bu cümləni çatdırmışdır ki, ey insan, sən həm maariflənməlisən, həm də maariflənmədən irəli gələn məsuliyyətin olmalıdır. Dinimiz həmin o elmlə, o maariflənmə ilə birlikdə olan məsuliyyətin - bu ikisinin bir yerdə olduğu halda, alimin mürəkkəbini şəhidin qanından üstün sayır. Niyə? Çünki bu mürəkkəb - şəhid qanı yetişdirən bir mürəkkəb olar. Yerlər və göylər, məsuliyyəti olan bilik əhlinə "bəh-bəh" deyər. Niyə? Çünki yer və göy elə bu məsuliyyəti olan agah insan üçün yaradılmışdır.

İslam məntiqində məsuliyyətli, agah olan insan bir qalaya bənzədilib. Bir qalaya ki, haqqın qorunması üçün heç cür alına bilməz və haqqın qorunmasında istisnavi funksiyaya, rola malikdir. İslam məntiqində məsuliyyətli bilik əhli bənzədilib sərhədçilərə. Amma nəinki dünya malının sərhədində dayananlara. Onların durumu - haqqın sərhədində dayananlara, haqla batilin arasındakı qırmızı xətlərdə dayananlara aiddir.

İslam məntiqində məsuliyyətli agah insanların Qiyamət günü şəfaətçi kimi çıxış etmək lütfünə imkan verilir. Onlar tək bu dünyada insanlara kömək edib, xidmət etməklə kifayətlənməzlər. Necə ki, onlar bu dünyada toplumu fikirləşərlər, Uca Allah onlara Qiyamət günü - o ağır dəqiqələrdə də yenə insanlara, topluma xidmət etmək lütfünü nəsib etmişdir. Onalr insanlara şəfaət verməк kimi yüksək məqama sahiblənə biləcəklər.

Budur İslamın, əziz dinimizin elmə və insanın məsuliyyətinə münasibəti.

## 12000 tələbəsi olan alimin faciəsi

Bunun tam əksinə gələk. Bugünkü bəhsimizdə baxaq görək, biliyi olan, amma məsuliyyət daşımaq istəməyən insanlara aid mübarək İslam dinimizin fikri nədir?

Mübarək İslam dini məsuliyyətsiz bilik əhlini, məsuliyyətsiz agahları, məsuliyyətsiz alimləri ciddi qəbul etmir. Zamanımızda bir "mədəniyyət" yavaş-yavaş daxil olur topluma ki, bəzi hallarda adam haqqı deməyə utanar. Amma Quran məntiqində məsuliyyəti yerinə yetirməyən həmin o məsuliyyətsiz bilik əhli açıq-aşkar şəkildə kəskin pislənir.

Həzrət İmam Rzadan (ə) bir hekayə nəql edilir ki, insanın vücuduna çox güclü təsir edir. Hekayədə böyük bir savadlı alimdən söhbət açılır ki, on iki min tələbəsi var idi. O cümlədən, şəhid Saninin də söylədiyinə görə, bu adamın dərsinə 12000 adam gələrmiş. Amma dinimizin məntiqində o, itə bənzədilir. Niyə? Çünki dinimiz istəyir fəsad törədən məsuliyyətsiz alimin aqibəti bütün bəşəriyyət üçün açıqlansın ki, nəticə etibarilə bəşəriyyət bu bəhsdən, bu məsələdən ibrət dərsi götürsün. Sözügedən bu alimin yaşadığı toplumda da çox böyük hörməti var idi. Çox məşhur olan şəxslərdən imiş. Camaat ona bir alim kimi, bir savadlı insan kimi müraciət edərmiş. Camaat deyərmiş ki, bu adam hər şeyin zirvəsidir. Amma həmin o alim fəsad, ədalətsizlik, bidətlər hökm sürən bir toplumda yaşayırdı. Bu toplumda insanların haqları pozulurdu. İnsanlar həm mənəvi, həm də fiziki işgəncələrə məruz qalırdılar.

Bir gün Musa peyğəmbərin (ə) ardıcılları bu qövmü, bu milləti xilas etmək üçün, bu millətə nicat vermək üçün onlara tərəf hərəkətə keçirlər. Onda bu yerlərin, bu toplumun zalım başçısı öz məğlubiyyətini hiss edir. Sonuncu hiyləyə əl atır. Zalımın yadına o alim düşür. O şəxs ki, hamı onu alim bilir, hamı onu dinin daşıyıcısı bilir, dinin simvolu bilir. Deməli, zalım başçı qərara gəlir bu alimin hörmətindən, bunun varlığından, bunun vücudundan öz mənfəəti üçün istifadə etsin. Gedir ondan istəyir, onun qarşısına tələb qoyur. Deyir, Musanın (ə) tərəfdarlarına nifrətini bildirmək üçün, öz qəzəbini bildirmək üçün get onları lənətlə. Özü də onları açıq-aşkar surətdə lənətlə.

Bu alim toplumda baş verən cinayətlərdən xəbərdar idi. Yəni belə deyil ki, onun barəsində deyələr ki, "yazığın xəbəri yox idi". Bu "yazıq"ların adət üzrə hər şeydən xəbəri olur. Həm keçmişdə, həm də indi. Tarixdə belə qalıb ki, elə o alimin də xəbəri var idi vəziyyətdən. Onun həm baş verən fəsadlardan xəbəri var idi, həm ədalətsizlikdən xəbəri var idi, həm də insanların məruz qaldığı zülmdən xəbəri var idi. Həmin şəxs gecə başını qoyub yatanda, həmin vaxt camaat zülm çəkirdi. Camaatın iniltisi ucalırdı göylərə.

Bəli, onun Həzrət Musanın (ə) ardıcıllarının gəlişindən də xəbəri var idi. Bilirdi kim gəlir. Bilirdi ki, gələn Allah Peyğəmbəri (ə) və onun qoşununun adamlarıdır. Amma həmin alim imtahanını vermir. O imtahanı ki, məsuliyyəti var idi, onu vermir və öz maddi xeyrini və mənfəətini daha üstün tutur. Öz İlahi məsuliyyətini yerinə yetirmir və zalım başçının sözünə əməl etməyə çalışır.

Bu alimin bir uzunqulağı var idi. Maraqlıdır ki, nəticədə həmin uzunqulaq bu alimdən qat-qat üstün məxluq çıxır. Alim öz uzunqulağına minir və bu lənətləri söyləmək üçün hərəkət edir. Lakin belə məsələlər də var ki, hətta heyvana da İlahi ilham verilə bilər. Alimin ulağına da İlahi ilham verilir ki, hərəkət etmə. Heyvan yerindən tərpənmir. Alim uzunqulağı nə qədər döyəcləyir ki, tez gedək, mən gecikərəm, birdən vaxtında mənə tapşırılan lənətləmə vəzifəsini icra etmərəm, bunlar da işlərini görər. Sonra məndən soruşular ki, niyə gecikdin? Onda durub deməyəcəyəm ki, uzunqulaq hərəkət etmirdi!

Hədislərdə deyildiyinə görə, axırda iş o yerə çatır ki, Allahın qüdrəti və inayəti ilə ulaq dilə gəlir və "alimə" deyir: "Vay olsun sənə! Məni niyə vurursan? Heç bilirsən hara getmək istəyirsən? İstəyirsən mənimlə birgə bir yerə gedəsən ki, orada Allahın Peyğəmbərinə (ə) və imanlı insanlara lənət edəsən!" Burada artıq höccət tamam olur bu alim üçün. Əgər bu alim bu ana kimi bilmirdi nə baş verir, bundan sonra artıq bilməməyə heç bir imkanı qalmır. Özünü satmış bu "alim", təkəbbüründən Allahın çox layiqli bu məxluquna o qədər zərbələr endirir ki, axırda uzunqulaq canını verir.

## Nə üçün belə müqayisə?

Quran tam ciddiyyətlə, çox açıqlıqla, birbaşa belə insanların və bu şəhildən olan digər insanların kimliyini göstərir. "Əraf" surəsinin 176-cı ayəsində deyilir ki, onun məsəli, bu alçaq xislətli insanın məsəli - itin məsəli kimidir. Ayənin izahında müfəssirlər belə söyləyir ki, yəni necə ki, ani ləzzətlər təşnəsi bir it həqiqətə fikir verməz və heç kim də o itdən narahat olmaz, çünki it - itdir, bu kişinin də misalı eynilə həmin o itin misalı kimidir. Çünki bu adamın malik olduğu bilik, onun malik olduğu elm, ona məsuliyyət vermədi. Onda vücudi dəyişiklik etmədi. O, sanki bir it kimi öz maddi məqsədlərinə doğru hərəkət etdi. Yəni insan, iradəvi olaraq özünü bir itin vəziyyətinə sala bilir ki, ani ləzzətlərini ödəməkdən əlavə onu heç nə qayğılandırmır.

Allah rəhmət etsin Əllamə Təbatəbaiyə. Onun mübarək "Əl-Mizan" kitabında, 8-ci cildində bu məsələyə işarə olunur. İmam Baqirdən (ə) bu misalı gətirməkdə əsas məqsəd - bu alimin durumudur. Amma bu təmsil, bu kinayə nəfsani meyilləri nəticəsində məsuliyyətdən uzaq düşən hər bir insana aiddir. İmam Baqirin (ə) mübarək buyuruşundan aydın olur ki, bu alimin həmin zalım hökmdara yaltaqlığı ucbatından, öz nəfsani meyillərinə uyması səbəbindən bərbad vəziyyətə düşməsini anlamaq öz yerində, amma bu misalın gətirilməsində əsas məqsəd - bütün insanlardır. Yəni nə? Yəni çalışın bu alim kimi məsuliyyətdən qaçıb öz ani ləzzətləriniz üçün, öz dünyanız üçün, öz maddi mənfəətiniz üçün haqqı, həqiqəti tapdalamayın.

Bu, müqəddəs Quranın bu cür insanlara verdiyi birinci nisbətdir ki, itə bənzədir.

İkinci nisbət, onların kitablarla yüklənmiş uzunqulaqlara bənzədilməsidir. Quran, o alimləri ki, İlahi məsuliyyətdən qaçdılar və nəticə etibarilə topluma, insanlara ən böyük zərbə vurdular - onları uzunqulaqlara bənzədir. O uzunqulaqlara ki, kitabla yükləniblər. Amma uzunqulağı nə qədər kitabla yükləyəsən, ən yaxşı kitabları, ən gözəl kitabları ona yükləyəsən - bu uzunqulaq bu kitablara əməl edən olmayacaq. Quran məntiqi "Cümə" surəsinin 5-ci ayəsində o bilik əhli barədə ki, onların malik olduqları məlumat onlarda əməl𝑛 təsir qoymur, praktik həyatlarında heç bir məsuliyyət vermir və onların insani məsuliyyətlərini, insani vəzifələrini yerinə yetirməyə sövq etmir - bəlaları üçün deyir ki, necə uzunqulağı nə qədər kitabla yükləyəsən, onun əməlində heç bir xeyri yoxdur, bunlar da o cür uzunqulaqlara bənzəyərlər. Yükləniblər, amma insanlara bunun nə xeyri?!

## İnsanların ən pisi kimdir?

Üçüncü misal ki, Quran məntiqindən irali gələrək, hədislərdə əksini tapır, belədir. Həzrət Əli (ə) bu növ insanları insanların ən pisi adlandırır. Həzrt Əlidən (ə) soruşurlar ki, şeytandan, firondan, Nəmruddan və yalandan özlərini müsəlmanların rəhbəri və başçısı elan etmiş batil hökmdarlardan sonra insanların ən pisi kimdir?

Hamı bilir ki, şeytandan o yanası yoxdur, firondan da o yanası yoxdur, Nəmruddan da o yanası yoxdur. Bunlarla bir səviyyədə olmağın pisliyi ilə bağlı camaat görünür əvvəlcədən maariflənib. İndi də Həzrət Əlidən (ə) istəyirlər öyrənsinlər ki, bunlardan və zalım hökmdarlardan sonra ən pis adam kimdir? Zalım hökmdarı bir az da izah edirlər hədisdə. Yəni yalandan özlərini müsəlmanların başçısı elan edərlər. Bunlar sözsüz insanların ən pisidir. Necə firon kimi, Nəmrud kimi, şeytan kimi. Bəs bunlardan sonra gələn ən pisi kimdir, deyə Əlidən (ə) soruşurlar. İmam Əli (ə) buyurur: "Toplumun fəsad törədən agahları, toplumun fəsad törədən biliklilər". Yəni insanlar arasında bilikli olub və fəsad törədənlər. İnsanlar arasında agah olub, məlumatlı olub, maarifli olub, amma fəsad törədənlər - həmən o pislərdir. Bu, bir qrupdur ki, həqiqətləri gizlədər. Puç və batil məsələlərlə toplumun başını aldadar.

Bunların kimlər olduğunu İmam Əli (ə) çox gözəl izah edir. Bəli, bunlar həqiqətləri gizlədənlərdir. Bunlar puç və batil məsələlərlə toplumun başını qatanlardır. Onlar haqqında Allah Təala "Bəqərə" surəsinin 159-cu ayəsində buyurur: "Allah Təala və lənət edənlər, onlara lənət edərlər". Kimlərə? O bilikli kəslərə ki, məsuliyyətli olmalı idilər.

Hər bir zərrə qədər biliyinə görə insanın məsuliyyəti var. Elmi dərəcəsinin hər bir zərrəsinə görə, o elmindən irəli gələn məsuliyyəti var insanın. Quran məntiqindən aydın olur ki, Allah Təala və lənət edənlər, o cür insanlara lənət edərlər ki, bilikli olarlar, məlumatları olarlar, amma həqiqətləri gizlədərlər və insanların başlarını puç və batil boş-boş şeylərlə qatarlar. Onlar Allahın və lənət edənlərin lənətinə nəinki layiqdirlər, birbaşa lənət olunurlar.

Bəli, aydın olur ki, bu alim kimilər həmişə var. Buradan aydın olur ki, insan son dərəcədə diqqətli olmalıdır, agah olmalıdır ki, ona bənzərlərdən olmasın.

## Təmərküzləşmək üçün resept

Sonda təbərrük üçün böyük əxlaq ustadı, mərhum Ayətullah Behcətdən bir neçə praktiki tövsiyəyə toxunaq. Bu tövsiyələr insanı iblis lənətliyin vəsvəsələrindən qorumaq baxımından çox qiymətlidir. Sualların birində Ağa Behcətə müraciət edirlər ki, mən qərarlaşıram Allaha yaxınlaşmaqdan ötrü hansısa bir işləri görüm. Müəyyən müddətdən sonra əzmim süstləşir və məğlub oluram. Onun cavabında Ağa Behcət (r) söyləmişdir ki, bir dəqiqə fikrini cəmlə və bil Kimin hüzurundasan və həmin andan, həmin diqqət halından öz ixtiyarınla çıxma. Hiss et, Kimin hüzurundasan. Bilərəkdən o vəziyyətdən çıxma, qeyri-ixtiyarı çıxsan, əhəmiyyət vermə. Zaman-zaman yadına nəsə düşsə də, əhəmiyyət vermə, yenidən diqqətini cəmlə.

Başqa yerdə həmin sualın cavabında buyurulur ki, namazdan qabaq İmam Zaman ağaya (ə.f) təvəssül etmək çox kömək edir bu diqqətin təmərküzləşməsi prosesinə. Deməli, bir neçə mübarək yol var insana kömək etmək üçün.

Digər yerdə Ağa Behcətə sual verirlər ki, bir kəs istəyə riyadan uzaq olsun - nə etməlidir? Cavabında deyilir kamil əqidə ilə çoxlu halda təkrar etsin: "Lə həulə və lə quvvətə illə billəh" - "Allahdan başqa güc və qüvvət yoxdur". Bunu çoxlu təkrar etsin. Bu, riyaya qarşı dərmandır.

Bir nəfər də Ağaya (r) sual edir ki, mən vəsvəsəlik rəzalətinə tutulumuşam, vasvasıyam. Hər bir şeydə çoxlu vəsvəsə edirəm. Zəhmət olmasa bizə xilas olmağın yolunu göstərəsiniz. Cavabında bir cümlə ilə Ağa buna məsləhət görür ki, çoxlu "təhlil" söyləmək - vəsvəsənin əlacıdır. Təhlil nədir? Təhlil, yəni "Lə iləhə illəllah" demək - "Allahdan başqa ibadət ediləcək bir məbud yoxdur" zikrini demək.

**Allahım! Bizləri həqiqi ixlasda olanlardan qərar ver!**

**Allahım, bizləri elminə əməl edənlərdən qərar ver! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

*N 7 (7177) 11 yanvar 2019*

# Keçmiş neft işçisi evinə qaçaq neft xətti çəkdirib

**63 yaşındakl Samvel Kilangilaninin Tanzaniya Liman İdarəsinə aid neft boru xəttindən evinə qaçaq xətt çəkdiyi bildirildi. Ölkənin "The Citizen" qəzetində yer alan xəbərə görə, Tanzaniya-Zambiya Neft Xətti İdarəsindən təqaüdə çıxan Samvel Kilangilaninin liman idarəsinə aid neft xəttindən evinə qaçaq xətt çəkdiyi müəyyən olundu.**



Qəzetə danışan Darüsselamın komissarı Benedict Kitalika deyib ki, liman idarəetməsi işçiləri ilə aparılan ortaq araşdırma nəticəsində neft paylaşımı edən boru xətlərində litrlərlə neftin itdiyini müəyyən ediblər. İstintaq açıqlarını qeyd edən Kitalika nəticədə Kilangilaninin evinə gedən qaçaq boru xəttinin ortaya çıxarıldığını dedi.

Kigamboni komissarı Haşim Mgandilva da Kilangilaninin evindən çıxan neftin çevrəyə yaydığı qoxudan narahat olanların şikayəti əsasında qaçaq xətti tapdıqlarını açıqladı.

# Adam qucaqlama peşəsinə görə dünyanın pulunu qazanır



**Amerikanın Kanzas ştatının Lourens şəhər sakini olan qadın qeyri-adi peşəsinə görə varlanıb. O, bütün gün tanımadığı adamları 1 saat qucaqlamaq müqabilində 80 dollar qazanır. Robin Meri adlı qadın etiraf edib ki, "adam qucaqlayan" peşəsinə üç ayda yiyələnib. Müştəri ilə görüşdən əvvəl o, videoçat vasitəsilə onunla əlaqə saxlayır və razılaşma əldə edirlər ki, toxunuş ancaq platonik xarakter daşıyacaq. Seans özü isə neytral ərazidə keçirilir - nə Merinin, nə də müştərinin evində. Müştəri şəxsiyyətinin təsdiqlənməsi üçün sürücülük vəsiqəsini təqdim etməlidir.**

Merinin 20-75 yaş arasında 30-a yaxın daimi müştərisi var. Seans zamanı o, yataqda müştərisini qucaqlayır. Əgər kimsə buna görə özünü narahat edirsə, bu barədə dərhal deməlidir. "Qucaqlaşmaq insana digər insanla möhkəm əlaqə hissini verir ki, bundan başqa heç nə bunu əvəz edə bilməz. Məndə və müştərimdə eyni vaxtda xoşbəxtlik hormonu ifraz olunur". O, əmindir ki, yaxın illərdə onun xeyli həmkarı yaranacaq.

Merinin müştərilərindən biri, 27 yaşlı Emi Tompson iddia edir ki, terapiyanın bu növü ünsiyyət üçün olduqca vacibdir. Onun sözlərinə görə, indi insanların çoxsaylı problemləri var və belə şərtlər daxilində insan Merinin təhlükəsiz aurasında olmaqdan məmnunluq duyur.



# Böyrəyini satıb telefon aldı, indi canı ilə əlləşir

**Çin sakini qara bazarda öz böyrəyini sataraq onun puluna mobil telefon və Apple planşeti alıb. İndi isə o, böyrək çatışmazlığından əziyyət çəkir. O, hələ 2011-ci ildə, 17 yaşı olanda iPhone və iPad almağı qərarlaşdırıb. Valideynlərinin bu bahalı hədiyyəni almağa pulları olmayıb və buna görə gənc oğlan bu səbəbdən internetdə orqan alverçilərini tapıb. Onlar gəncə söz verdilər ki, orqanlarından birini versə, ona yaxşı pul ödəyəcəklər.**

Həmin ilin aprelində o, valideynlərindən xəbərsiz Çinin başqa bir şəhərinə gedib və orada onun bir böyrəyini çıxarıblar. Böyrəyin qiyməti isə 10 min dollar olub. O, həmin pula iPhone 4 vı iPad 2 alıb. Az keçmədən onun səhhəti pisləşib, sonra da böyrək çatışmazlığından əziyyət çəkib, digər böyrəyi də çalışmayıb. Əməliyyatdan yeddi il keçsə də, o, dövlətin müavinətləri hesabına yaşayır və daim qulluğa möhtacdır.

Hüquq-mühafizə orqanları bu əməliyyatda iştirak edən üç nəfər vasitəçini və iki həkimi aşkarlayıblar. Vasitəçilər üç ildən beş ilə qədər, həkimlər isə üç ilə qədər həbs cəzasına məhkum olunublar. Zərərçəkənin ailəsinə isə 1.47 milyon yuan məbləğində kompensasiya verilib.




**QOÇ** - Ətrafınızda cərəyan edən proseslər nə qədər əleyhinizə işləsə də, dözümlü olmalısınız. Əks təqdirdə, uğurlardan uzaq düşəcəksiniz. Mənzil şəraitində daha çox olun.

**BUĞA** - Kosmik fonun aktivliyini nəzərə alan ulduzlar bütün diqqəti fəaliyyətə ayırmağı tövsiyə edir. Əgər bunu bacarsanız, yanvarın son ongünlüyündə ciddi problemlərlə rastlaşmayacaqsınız.

**ƏKİZLƏR** - Həyat təcrübəsi zəif olan adamlardan uzaq olun. İndiki məqamda belə hallar sizə yalnız zərər yetirə bilər. Amma bilik və təcrübəsi bol olan şəxslərdən bərk-bərk yapışın.

**XƏRÇƏNG** - Əgər səhhətiniz imkan versə, müqəddəs yerləri ziyarət etməklə hazırkı enerji azlığınızı aradan qaldıra bilərsiniz. Maraqlı insanlarla rastlaşma ehtimalınız da var.

**ŞİR** - İştirakçısı olduğunuz proseslər olduqca ciddi bir mərhələyə yetişib. Belə məqamlarda ehtiyatlı və tədbirli davranmalısınız ki, gözdən düşməyəsiniz. Uzaq yola çıxmaq da olar.

**QIZ** - Ətrafınızı bürüyən bədxah insanlar sizi imansız yola təhrik edə bilərlər. Özünüzü təsirdən qoruyun. Hansısa dedi-qodu və ya şər neçə illik xoş münasibətlərə kölgə salmamalıdır.

**TƏRƏZİ** - Mistik düşüncələrə qapılmaqdansa, Tanrını başınız üstündə hiss edib düzgün qərarlar verin. Yalnız bu halda irəliləyişlər mümkündür. Qarşınızda müəyyən yeniliklər də durur.

**ƏQRƏB** - Sizə mənəvi dəstək verə biləcək insanlarla rastlaşma ehtimalınız var. Çalışın ki, bu görüşlər boşuna getməsin. Daxili narahatlığınızı dəf etmək üçün bunun böyük səmərəsi ola bilər.

**OXATAN** - Nahara qədər qeyri-adi hansısa hadisə gözləməkdənsə, darıxdığınız adamlarla görüşməyə cəhd edin. Pul və işlə bağlı planlarınızı isə günortadan sonraya saxlayın.

**OĞLAQ** - Pul kisəsinin qənaətbəxş olmaması ləyaqət və mənliyinizə kölgə salmamalıdır. Çünki həyatın enişi-yoxuşu həmişə olur. Odur ki, iman işığına söykənib mərhəmətli olun.

**SUTÖKƏN** - Çıxardığınız hər bir qərarı dəfələrlə götür-qoy edin. Yanlışlığa yol verməyin. İlk növbədə nüfuzunuzu qoruyun. Astroloji göstəricilər yeni ideyalara yiyələnəcəyinizdən xəbər verir.

**BALIQLAR** - Həssas və çılğın olmağınızdan istifadə edən bəzi bədxahlar sizə tələ qura bilər. Bu səbəbdən də özünüzü dağ kimi təmkinli aparın. Əmin olun ki, bunun bəhrəsini görəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Burun əməliyyatına girdi, indi ölümlə çarpışır



**11 ay öncə evlənən 26 yaşındakı İbrahim Doğan rahat nəfəs ala bilmədiyi üçün üç ay əvvəl burnunu əməliyyat etdirməyə qərar verib. Amma əməliyyat zamanı gənc adam komaya girib və komadan çıxa bilmir. İ.Doğanın həyat yoldaşı prokurorluğa şikayət edib. Əməliyyata girən gəncin burnundakı sümük alınarkən qəribə hadisə baş verib. Öncə gəncin ürəyi dayanıb, müdaxilədən sonra ürəyin fəaliyyəti bərpa olunub. Amma bu zaman da onun beyninə oksigen getməyib. Dərhal gənci Pamukkale Universiteti Xəstəxanasına göndəriblər. Bununla belə, 3 aydır ki, İ.Doğan reanimasiyadadır və ayılmır.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100